Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 201 (7928) BAZAR, 9 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Strateji tərəfdaşlıq yeni və dinamik inkişaf mərhələsinə qədəm qoyur

## Azərbaycanla Xorvatiya arasında iqtisadi münasibətlərin yüksəliş dövrü başlayır



**"Xorvatiya Azərbaycanı özünün mühüm strateji tərəfdaşı hesab edir. Azərbaycan və Xorvatiya əsl dostlardır. Biz bir-birimizi Avropa İttifaqı çərçivəsində də dəstəkləyirik. Biz, Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli qaydada münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mövqeyini yüksək dəyərləndiririk".**

Bu fikirləri sentyabrın 6-da Xorvatiyada iki dövlət arasında sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatla çıxış edən bu ölkənin lideri, xanım Kolinda Qrabar-Kitaroviç söyləyib.

Xorvatiya Prezidenti vurğulayıb ki, ölkəsi güclü iradəyə əsaslanaraq Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır.

### İki ildə dörd görüş

Öncə onu vurğulayaq ki, ölkəmizin müstəqilliyini 28 dekabr 1991-ci ildə tanıyan Xorvatiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1995-ci ildən başlayıb. 2011-ci ilin fevralından Azərbaycanın Xorvatiyada, həmin ilin mart ayında isə bu ölkənin respublikamızda səfirliyi fəaliyyətə başlayıb. 2008-ci ildən Xorvatiya Parlamentində Xorvatiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu fəaliyyət göstərir.

Prezident İlham Əliyev 2005-ci il 10-12 iyun və 2013-cü il 10-12 mart tarixlərində Xorvatiyada rəsmi səfərdə olub. Bu səfər isə dövlət başçısının Xorvatiyaya 3-cü rəsmi səfəri oldu. Azərbaycan Prezidentinin xorvatiyalı həmkarı xanım Kolinda Qrabar-Kitaroviçlə keçirdiyi görüşlərin sayı isə 4-ə çatdı.

2015-ci ildə Xorvatiya Prezidenti seçilən Kolinda Qrabar-Kitaroviçlə cənab İlham Əliyev arasında ilk görüş 2016-cı ilin fevral ayında Londonda gerçəkləşib. Fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində görüşən prezidentlərin ikinci görüşü həmin ilin oktyabrında Bakıda baş tutub. Azərbaycana iki günlük rəsmi səfərə gələn Xorvatiya Prezidenti biznes forumda da iştirak edib. Dövlət başçıları arasında növbəti görüş 2017-ci il 16-17 fevral tarixində Almaniyada təşkil olunan 53-cü Münxen Təhlükəsizlik Konfransı çərçivəsində gerçəkləşib. Sentyabrın 6-da isə 4-cü dəfə görüşən liderlər iki dost ölkə arasında münasibətlərin daha da dərinləşməsi, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi istiqamətində danışıqlar aparıblar.

### Yeni sənədlər ikitərəfli münasibətlərə təkan verəcək

İki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya fəaliyyət göstərir. Komissiyanın 2017-ci ildə Bakıda keçirilmiş ilk iclasında sənaye, enerji, nəqliyyat, informasiya texnologiyaları, turizm, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə mühüm razılaşmalar əldə edilib.

Ölkələrimizin qarşılıqlı əlaqələri ilə bağlı indiyədək 20-dək müqavilə imzalanıb. İki ölkə arasında ticari münasibətlərə gəlincə isə onu demək olar ki, 2016-cı ildə ticarət dövriyyəsinin həcmi 284,7 milyon dollar təşkil edib. Bunun da 51,2 milyon dolları idxalın, 233,5 milyon dolları ixracın payına düşüb. Ötən il isə ticarət dövriyyəsi 110 milyon dollar həcmində olub.

Sentyabrın 6-da isə strateji tərəfdaşlar arasında imzalanan müqavilələr sırasına daha iki sənəd əlavə edilib. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram"ı və "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Yeni imzalanan sənədlər, əlbəttə ki, ikitərəfli münasibətlərə təkan verəcək.

### İqtisadi münasibətlərin daha da inkişafı üçün real zəmin var

Dövlət başçıları arasında keçirilən görüşdə iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Xorvatiya lideri bu sahədə hazırkı vəziyyətin hələ o qədər də istənilən səviyyədə olmadığını söyləyərək bununla bağlı qarşılıqlı komissiyanın iş apardığını vurğulayıb. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürməkdən, onları həyata keçirməkdən ibarətdir.

İki ölkə arasında bir sıra sahələrdə əməkdaşlığın daha da genişləndirilməsini vacib hesab edən Kolinda Qrabar-Kitaroviç hesab edir ki, əczaçılıq sahəsində Xorvatiya öz təcrübəsini bölüşə bilər. Prezident İlham Əliyev isə iki ölkənin şirkətləri tərəfindən birgə müəssisənin təsis edilə biləcəyinin mümkünlüyünü qeyd edib.

*Ardı 2-ci səh.*

# Qəbələ: hər kəsin rahatlıq tapdığı məkan

## İcra olunan infrastruktur layihələri rayonun imkanlarının və cəlbediciliyinin artmasına təkan verir



**Hər il olduğu kimi, cari ildə də Qəbələdə tikinti-quruculuq işləri uğurla davam etdirilir. Ölkəmizin digər rayonlarında olduğu kimi, burada da insanların sağlamlığına ciddi yanaşılır.**

Artıq Qəbələ şəhərində də 160 çarpayılıq rayon mərkəzi xəstəxanası kompleksinin tikintisinə başlanılıb. Ötən dövr ərzində şəhərdə 120 yerlik uşaq bağçası və körpələr evinin, içməli su və kanalizasiya sisteminin yenidən qurulması, Laza kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin tikintisi aparılıb. Paralel olaraq Zərgərli kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin tikintisi, Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun əsaslı təmiri, şəhərin Muxtar Abduyev küçəsində beş mərtəbəli, Heydər Əliyev prospektinin ətrafındakı ikimərtəbəli yaşayış binalarının əsaslı təmiri də görülən işlərdəndir. Eyni zamanda Zarağan kəndində tam ota məktəb binasının dam örtüyünün təmiri, Mıxlıqovaq kəndində içməli su təchizatı sisteminin qurulması, Mıxlıqovaq və Kötüklü kəndlərinin qazlaşdırılması işləri davam etdirilir. Zərifə Əliyeva adına Mədəniyyət və İstirahət Parkında əsaslı təmir işlərinə başlanılıb. Hacıalılı kəndində isə 40 yerlik uşaq bağçasında təmir işləri yekunlaşıb.

İcra olunan işlərlə yanaşı, yeni layihələr üzərində də konkret fəaliyyətlər həyata keçirilməkdədir. Miqyasına görə həmin layihələr də əhəmiyyətli dərəcədə böyükdür. Bunlardan 3 ədədi sırf təhsilin inkişafına xidmət edən layihələrdir.

*Ardı 7-ci səh.*

# Dövlət qayğısının daha bir ünvanı



**Respublika iqtisadiyyatının möhkəmlənməsinə sanballı töhfələr verən, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi uğrunda vüsət alan hərəkatın ön sıralarında gedən Sabirabad hər zaman dövlət qayğısının mərkəzində yer alır.**

Son illər sürətlə inkişaf edən rayon bütün istiqamətlərdə - istər aqrar sektorun dinamikasında, istərsə də genişmiqyaslı tikinti, abadlıq-quruculuq işlərinin uğurla reallaşdırılmasında Muğan düzünün mərkəzi funksiyasını şərəflə daşıyır.

Bol taxıl, pambıq, barama, ət, süd, digər kənd təsərrüfatı məhsulları istehsal etməklə firavanlıq yaradan sabirabadlıların sosial ehtiyaclarını yüksək səviyyədə qarşılamaq üçün dövlətin gördüyü tədbirlər alqışa və minnətdarlığa layiqdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Sabirabadda Avropa standartları səviyyəsində möhtəşəm xəstəxana kompleksi tikilib istifadəyə verilmişdir. Müasir tələblərə uyğun layihə əsasında inşa edilən, müasir tibb avadanlıqları ilə təchiz edilən bu unikal səhiyyə müəssisəsinin açılışında dövlət başçısı iştirak etmişdir. Ötən il noyabrın 28-də bu münasibətlə keçirilən tədbir sabirabadlıların yaddaşında şirin bir xatirə kimi qalıb. Açılış mərasimi zamanı rayon ictimaiyyətinin nümayəndələri və xəstəxananın kollektivi ilə görüşündə Prezident İlham Əliyev demişdir: "Həm xarici görünüşü, həm də daxili şəraiti baxımından zövq oxşayan 205 çarpayılıq Sabirabad Rayon Mərkəzi Xəstəxanası ən yüksək standartlara cavab verir. Bu, çox gözəl memarlıq abidəsidir. Burada dünyanın aparıcı şirkətlərinin ən qabaqcıl avadanlığı quraşdırılıb, bütün şərait yaradılıb. Burada bütün şöbələr, o cümlədən cərrahiyyə, dializ, reanimasiya, terapiya şöbələri fəaliyyət göstərir. Bir sözlə, Sabirabad şəhərində açılan bu xəstəxana dünya səviyyəsində seçilən xəstəxanalardan biri olacaq.

*Ardı 7-ci səh.*

## "AZƏRBAYCAN"– 100

## İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

# Vətən sevdalılar

## "Azərbaycan"ın birləşdirdiyi, repressiyanın məhv etdiyi talelər

**...Burada zaman ağır keçirdi. Hər günləri bir ilə bərabərdi. Ən gözəli xatirələrə sığınmaqdı. Ancaq onlar da payız günəşinə bənzəməyə başlamışdılar. Hicran soyuğundan üşüyən ürəklərini isidə bilmirdilər.**




Həbsxananın bir küncündə oturmuşdu. Bu kamera adlanan on beş kvadratmetrlik otağın yarım kvadratmetr böyüklükdəki pəncərəsindən saçılan günəşin ziyası bir payız gününün son saatını andırırdı. Umgülsüm Sadıqzadəyə elə gəldi ki, zaman donub. Bir də nə axşam düşəcək, nə də sabah açılacaq. Buradakı otuz altı nəfər məhbus qadın da, beləcə, azadlıqda qalan doğmalarının həsrəti ilə sonsuzadək sızlayacaqlar.

Başını divara söykəyib gözlərini bərk-bərk yumdu. Özünü inandırmaq istəyirdi ki, içərisində olduğu bu vaxt gerçəklik deyil, dəhşətli yuxudur. Deyəsən, yenə reallığı aldada bildi...

*Ardı 6-cı səh.*

# Dostların və müttəfiqlərin görüşü

## Rusiyalı politoloqlar Azərbaycan və Rusiya prezidentlərinin Soçi danışıqlarını yüksək qiymətləndirirlər

**Prezident İlham Əliyevin sentyabrın 1-də Rusiyaya etdiyi rəsmi səfər Azərbaycanla bu ölkə arasında münasibətlərin mehriban qonşuluq və dostluq prinsiplərinə söykənərək inkişaf etdiyini göstərdi.**

Ən əsası bir daha təsdiq olundu ki, bu münasibətlər həm də strateji xarakter daşıyır və Azərbaycan Rusiyanın Cənubi Qafqazda ən mühüm siyasi-iqtisadi tərəfdaşıdır. Azərbaycan Prezidentinin səfərinə münasibət bildirən rusiyalı politoloqlar da iki ölkə arasında əməkdaşlığın uğurla inkişaf etdiyini və strateji xarakter daşıdığını qeyd edirlər.



### Liderlərin səmimi dostluq münasibətləri proseslərə güclü impuls verir

"Sentyabrın 1-də Soçidə Rusiya və Azərbaycan prezidentlərinin görüşü ölkələrimiz arasında münasibətlərin inkişafında olduqca mühüm mərhələdir. Göz qabağındadır ki, iki dövlətin liderləri arasında şəxsi səmimi dostluq münasibətləri bu proseslərə çox güclü impuls verir". Bu sözləri Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev deyib. O qeyd edib ki, ölkələrimiz arasında əmtəə mübadiləsinin artması xarici iqtisadi qarşılıqlı əlaqələrin inkişafının böyük potensialını nümayiş etdirir. Bu yaxınlarda Xəzərin hüquqi statusu haqqında qəbul edilmiş konvensiya birgə müəssisələrin yaradılması, birgə layihələrin icrası üçün yeni imkanlar açıb.

"Siyasi zəmin də çox vacibdir - olduqca mürəkkəb xarici siyasi şəraitdə biləndə ki, böhranlı vəziyyətdə qardaş xalqlar hər zaman çiyin-çiyinə duracaq, onda kollektiv Qərb tərəfdən xarici təzyiqə qarşı müqavimət göstərmək xeyli asan olur. Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır. Buna görə də bu məsələ prezidentlərin Soçi görüşündə diqqət mərkəzində idi", - deyə rusiyalı deputat bildirib.

### Onilliyin ən mühüm görüşü

Rusiyanın tanınmış politoloqu Qriqori Trofimçuk Rusiya və Azərbaycan prezidentlərinin sentyabrın 1-də Soçidə keçirilmiş görüşünü əlamətdar hesab edir. "Bir çox ekspertlər iki prezident arasında keçirilmiş görüşü onilliyin ən mühüm görüşü hesab edirlər. Bir çox cəhətdən bu fikirlə razıyam. Lakin mən onu daha dəqiq olaraq belə adlandırardım: əlamətdar görüş. Sadəcə o səbəbdən ki, Rusiya və Azərbaycan arasında yüksək səviyyəli danışıqlar Ermənistanın anlaşılmaz davranışının artması fonunda keçdi" -deyə o bildirib.

*Ardı 2-ci səh.*

# İxracatda kənd təsərrüfatı məhsullarının çəkisi artır

## *İndi Azərbaycan xaricdə təkcə neft və qazı ilə tanınmır*

**Son dövrlər həyata keçirilən iqtisadi siyasətin əsas istiqaməti qeyri-neft sektorunun inkişafıdır. Bu məqsədə nail olmaq üçün köklü islahatlar aparılır, qanunvericilik bazası təkmilləşdirilir, sahibkarlara hərtərəfli güzəştlər edilir.**

Xüsusilə mövcud olan bir çox bürokratik əngəllər aradan götürülüb. Belə ki, həyata keçirilən "Bir pəncərə" siyasəti və müəyyən sahələrdə lisenziyaların ləğvi və ya lisenziyaların alınma prosedurlarının sadələşdirilməsi sahibkarlara geniş imkanlar yaradır.

Hazırda qeyri-neft sektorunda məhsul istehsalının və ixracının çəkisinin sürətlə artması da bununla bağlıdır. Cari ilin birinci yarısında ümumi daxili məhsul 1,3, qeyri-neft sektoru 2 faiz çoxalıb. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində qeyri-neft sənayesində 8,8, kənd təsərrüfatında 7,6, informasiya və rabitə xidmətlərində 4,9, ticarətdə isə 2,5 faiz artıma nail olunub. Sözsüz, bu uğurların əldə edilməsi qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatların nəticəsidir.

*Ardı 7-ci səh.*



## Tacikistan Respublikasının Prezidenti zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Tacikistan ictimai-siyasi sabitlik, dayanıqlı sosial-iqtisadi inkişaf yolu ilə irəliləyir. Ölkənizin beynəlxalq nüfuzu, regional məsələlərdə rolu gündən-günə artır.

Azərbaycan-Tacikistan əlaqələri zəngin ənənələrə malikdir. Keçən ay Azərbaycana rəsmi səfəriniz bu ənənələrin aşkar təzahürüdür. İnanıram ki, dövlətlərarası münasibətlərimiz, qarşılıqlı maraq doğuran əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2018-ci il*

## Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Zərdab-Qaravəlli avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin ilkin olaraq 1,32 milyon (bir milyon üç yüz iyirmi min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2018-ci il*

# Dostların və müttəfiqlərin görüşü

## Rusiyalı politoloqlar Azərbaycan və Rusiya prezidentlərinin Soçi danışıqlarını yüksək qiymətləndirirlər

*Əvvəli 1-ci səh.*

Politoloqun sözlərinə görə, heç də sonuncu dərəcəli olmayan həmin səbəbdən İlham Əliyevin səfərinə məhz bu cür məna verilib. “Xüsusən ona görə ki, razılaşmaların olduqca mühüm bəndlərindən biri, Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, bu ölkənin Rusiyadan getdikcə daha çox hərbi təyinatlı məhsullar almasıdır. Artıq bu məhsulların dəyəri 5 milyard dolları ötür. Bu, bariz nümunədir” - deyə Q.Trofimçuk qeyd edib.

Q.Trofimçuk bildirib ki, Azərbaycan özünü regionda Moskvanın daha etibarlı tərəfdaşı olduğunu göstərir ki, bu da artıq özlüyündə siyasi kapitaldır. Bu mənada onu tez-tez strateji tərəfdaş adlandırırlar, hərçənd ki, Azərbaycan Ermənistan kimi nə Avrasiya İqtisadi Birliyinə, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olub. Danışıqların yekunu üzrə imzalanmış böyük sənədlər isə rusiyalı ekspertin fikrincə, müstəqil məna kəsb edir və regionda vəziyyəti gərginləşdirmək meylindən uzaqdır.

“Rusiya Prezidenti öz növbəsində, “Şimal-Cənub” nəqliyyat marşrutunun vacibliyini qeyd edib ki, bu, bütünlükdə regional təhlükəsizliyi möhkəmlətməyə imkan yaradır. Beləliklə, iki prezidentin görüşü Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün möhkəm əsaslar yaratdı” - deyə rusiyalı politoloq diqqətə çatdırıb.

### Münasibətlər strateji xarakter daşıyır

“Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri ölkələrimizin münasibətlərini çox yüksək qarşılıqlı etimad və faydalı əməkdaşlıq səviyyəsinə çatdırdı”. Bu sözləri isə tanınmış rusiyalı məşhur politoloq Pavel Klaçkov Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərinin və Prezident Vladimir Putinlə aparılmış danışıqların yekunlarını şərh edərkən söyləyib. O deyib: “Prezident İlham Əliyevin Rusiyaya səfəri göstərdi ki, ölkələrimiz arasında diplomatik əlaqələr çox yüksək səviyyədədir. Bu qarşılıqlı fəaliyyət həm ikitərəfli münasibətlərin, həm də daha ciddi beynəlxalq problemlərin geniş spektrini əhatə edir. İndi dünya nizamının formatının dəyişdiyini müşahidə etdiyimiz bir vaxtda, hər iki ölkə birgə olmalıdır ki, beynəlxalq siyasətdə bu qeyri-sabitlik dövrünü ən az itki ilə başa vursunlar. Bunun üçün müxtəlif istiqamətlər üzrə, o cümlədən təhlükəsizlik, hərbi və iqtisadi sahələrdə ikitərəfli əməkdaşlığı möhkəmləndirmək lazımdır. Səfər uğurlu keçdi və qarşıya qoyulmuş bütün hədəflərə nail olundu”.

Ekspert Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji xarakter daşıdığını vurğulayaraq bildirib ki, əlaqələr uzunmüddətli və planlı xarakter daşıyır: “Ticarət və neft-qaz sahələrində əməkdaşlığın müsbət nəticələri göz qabağındadır. Biz kənd təsərrüfatı sahəsində əməkdaşlığın vacibliyini də başa düşürük. Rusiya bazarına Azərbaycandan çoxlu kənd təsərrüfatı məhsulları daxil olur.

İndi biz səmərəli nəqliyyat modellərini, o cümlədən “Şimal-Cənub nəqliyyat dəhlizi”nin yeni infrastruktur qovşaqlarının yaradılmasını da nizamlamalıyıq. Rusiya üçün Azərbaycanın geosiyasi əhəmiyyəti artır. Biz başa düşürük ki, Hindistana gedib çıxan bu nəqliyyat dəhlizi Rusiya üçün çox vacibdir. Ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında yaxşı münasibətlər olmasa, bir sıra ölkələrin iqtisadi və təhlükəsizlik problemlərinin həlli mümkün deyil. Cənubi Qafqazda sabitliyin bərqərar edilməsi, burada münaqişəli zonaların olmaması, münasibətlərin kəskinləşməməsi Rusiyanın da maraqlarına uyğundur”.

Rusiyalı politoloq deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması “Şimal-Cənub nəqliyyat dəhlizi”nin inkişaf etdirilməsi baxımından Rusiya üçün də zəruridir. Pavel Klaçkov iqtisadi əməkdaşlığın müxtəlif aspektlərinə toxunaraq qeyd edib ki, çoxlu sayda biznes layihələri, xüsusən Taman bərə terminalının tikintisi layihəsi var. O, iqtisadi əlaqələrin genişlənməsində Bakının rolunu vurğulayaraq deyib: “Burada iki yanaşmanın sintezi müşahidə olunur. Biz təhlükəsizliyi təmin etmək üçün hərbi-texniki əməkdaşlığı inkişaf etdiririk. Qarşılıqlı etimadın müəyyən səviyyəsinə çatandan sonra isə iqtisadiyyatı inkişaf etdiririk. Rusiya hesab edir ki, burada ardıcıl irəliləmək üçün çox böyük perspektivlər, geniş imkanlar var. Ölkələrimiz iqtisadiyyatın bir sıra sahələrində, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığı addım-addım genişləndirir, hərtərəfli düşünülmüş tədbirlər həyata keçirirlər”.

### Azərbaycanın necə inkişaf etdiyi, Bakının necə gözəlləşməsi göz qabağındadır

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri və Prezident Vladimir Putinlə görüşü iqtisadi əməkdaşlığın prioritet istiqamətləri barədə birgə bəyanatın, habelə bir sıra mühüm sənədlərin, o cümlədən nəqliyyat, neft-qaz, idman, turizm, rəqəmsal sistemlər sahələrində sazişlərin imzalanması ilə başa çatdı. Prezidentlər arasında gözəl şəxsi münasibətlər sonda bu müqavilələrə transformasiya edir.

Bu barədə danışan Rusiya Dövlət Dumasının Müstəqil Dövlətlər Birliyi məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov qeyd edib ki, iki ölkənin liderləri arasında səmimi dostluq münasibətləri əməkdaşlığın bütün istiqamətlərində əlaqələrin inkişafına kömək edir. Leonid Kalaşnikov vurğulayıb: “Deməliyəm ki, “quru” rəqəmlər və faktlar arxasında uzun illər boyu bizim münasibətlərimizdə təzahür edən səmimiyyət var. Mən Prezident İlham Əliyevi yaxşı tanıyıram və bilirəm ki, o, Rusiyaya çox səmimi münasibət bəsləyir. Bu həm də onda təzahür edir ki, Azərbaycanda rus dili təbliğ edilir, rus məktəbləri fəaliyyət göstərir. Mən özüm dəfələrlə həmin məktəblərdə olmuşam. Azərbaycanın necə inkişaf etdiyi, Bakının necə gözəlləşməsi göz qabağındadır. Mən heç yerdə belə gözəl Dənizkənarı bulvar görməmişəm”.

Rusiyalı deputat Azərbaycanın turizm potensialının Rusiyada təbliğini gücləndirməyin vacibliyini qeyd edərək deyib: “Azərbaycandakı bəzi turizm obyektləri xarici ölkələrdəki kurortlarla müqayisədə qat-qat yaxşı və maraqlıdır. Mən heç gözləməzdim ki, Rusiyadakı kimi təbii şəraiti olmayan Azərbaycan qış turizmi sahəsində bu qədər irəliləyib. Mən tez-tez deyirəm ki, Azərbaycanın kurort potensialını rusiyalılar arasında daha çox təbliğ etmək lazımdır”.

L.Kalaşnikov ölkəmizin müasir inkişaf səviyyəsinə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolunu xüsusi vurğulayıb. Deputat deyib: “Dünən mən “Zvezda” telekanalının “Yeri gəlmişkən” (“Mejdu tem”) verilişində çıxış edərkən Heydər Əliyevi nümunə göstərdim və prezidentin öz vədlərini necə yerinə yetirməli olması barədə danışdım. Heydər Əliyev xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdanda Bakının küçələrində silahlı dəstələr qaynaşırdı, bütün oriyentasiya pozulmuşdu. Onda Heydər Əliyev dedi: “Mən qayda yaradacağam, hamı ilə razılığa gələcəyəm”. O, prezident olandan sonra həmin silahlı adamların yanına getdi, rus diasporunun və digər icmaların nümayəndələri ilə görüşdü. Deməliyəm ki, bu, bizim bu gün hakimiyyətdə olanların çoxu üçün örnəkdir - rəhbərin öz xalqına və öz dövlətinə necə münasibət bəsləməli, bütün xırda məqamları kənara ataraq xalq haqqında düşünməli olması barədə örnək. Mənim iş kabinetimdəki şkafda bir fotoşəkil var: mən, Gennadi Zuqanov və İlham Əliyev birlikdə çəkdirmişik. İlham Əliyevin dövlətə necə rəhbərlik etdiyini mən çox yüksək qiymətləndirirəm, ona uğurlar arzulamaq və onu əmin etmək istəyirəm ki, mən bir parlamentari kimi Azərbaycana kömək etməyə həmişə hazıram”.

### Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün ən vacib məsələdir

“Prezidenlər İlham Əliyevin və Vladimir Putinin Soçidə keçirilən görüşündə bir çox məsələlər, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub, ondan çox vacib sənəd imzalanıb. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin son üç ayda üç görüşü baş tutub. Bu görüşlər yaxın dostların və müttəfiqlərin mütəmadi görüşləridir”. Bunu Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq və ictimai xadim Sergey Markov deyib.

Politoloq bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər həm prezidentlər səviyyəsində, həm də iqtisadi, siyasi və humanitar sahələrdə inkişaf edir. Diaspor üzvləri hər iki dövlətdə rahat fəaliyyət göstərirlər. Qeyd olunub ki, Cənubi Qafqaz ölkələri arasında rus dili ən çox Azərbaycanda yayılıb və bu, Rusiya tərəfindən yüksək qiymətləndirilir. Bütün bu amillər onu göstərir ki, ölkələrimiz arasında strateji əməkdaşlıq mövcuddur.

Sergey Markov vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün ən vacib məsələdir. Lakin Ermənistanda baş verən hakimiyyət böhranı danışıqlar prosesini ləngidir. Prezident Vladimir Putinin Soçidə mətbuata bəyanatında dediyi kimi, Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

### Rusiya və Azərbaycan prezidentlərinin görüşü Ermənistanda ciddi gərginlik doğurub

Rusiya Siyasi Tədqiqatlar İnstitutu direktorunun müavini Darya Qrebtsova isə bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin Soçi görüşü Ermənistan mətbuatının yazdığına görə, bu ölkədə ciddi gərginlik doğurub. Buna səbəb isə Rusiyanın Türkiyə ilə münasibətlərinin sürətlə inkişaf etməsidir. Çünki Azərbaycan Türkiyənin dostu, qonşusu və strateji tərəfdaşı olaraq Rusiya ilə Türkiyənin bir-birinə yaxınlaşmasında maraqlıdır. Üç dövlətin bir-birini dəstəkləməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həlli işinə müsbət təsir göstərəcək.

Darya Qrebtsova qeyd edib ki, humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi də Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə diqqət mərkəzində olub. Gələn ay Azərbaycanda növbəti Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcək. Foruma bütün dünyadan alimlər, siyasi xadimlər qatılır. Forum iştirakçıları Azərbaycana gəlib buranın inkişafını öz gözləri ilə görürlər və bu ölkənin dostu olurlar. Tədbir iştirakçıları vətənlərinə qayıdandan sonra Azərbaycanda işlərin əslində, necə olduğunu danışırlar. Çünki bir çoxları Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı rayonların işğal olunmasından xəbərsizdirlər. Bu forum Azərbaycan torpaqlarının işğal olunması haqqında məlumatın beynəlxalq ictimaiyyətə çatdırılmasında vacib rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev bu işi forumda müvəffəqiyyətlə görür.

Direktor müavini həmçinin diqqətə çatdırıb ki, Rusiya və Azərbaycan arasında münasibətlər bir çox sahələrdə uğurla inkişaf edir, ölkələrimiz bir-birinə daha da yaxınlaşır.

***Rəşad CƏFƏRLİ***
***“Azərbaycan”***

# President İlham Əliyev: “Azərbaycan Avropa ilə müsəlman dünyası arasında mədəni və siyasi körpü rolunu oynayır”

## “İlham Əliyev. *İnkişaf - məqsədimizdir*” çoxcildliyinin 68-ci kitabı çapdan çıxıb

Əsrlərboyu Azərbaycan sivilizasiyaların bir araya gəldiyi məkan olub. Bizim coğrafi yerləşməmiz və xalqımızın tarixi irsi Azərbaycanda xüsusi ab-hava yaradıb. Azərbaycan Avropa və Asiya arasında təbii coğrafi körpüdür. Əminəm ki, Azərbaycan hazırda Avropa ilə müsəlman dünyası arasında mədəni və siyasi körpü rolunu oynayır. Bizim cəmiyyətdə multikulturalizm ənənələri dərin köklərə malikdir. Siyasi quruluşdan asılı olmayaraq, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və etnik azlıqların nümayəndələri hər zaman sülh və ləyaqət şəraitində yaşayıblar. Müstəqil olandan sonra Azərbaycan bu səbəbdən dünya multilkulturalizm mərkəzlərindən birinə çevrilib.




AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 68-ci kitabında yer alan bu fikirləri dövlət başçısı 2015-ci il aprelin 28-də III Qlobal Bakı Forumunun rəsmi açılış mərasimindəki nitqində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 68-ci kitabındakı materiallar 2015-ci ilin martından may ayınadək olan dövrü əhatə edir.

Nəşrdə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərinə, Ər-Riyadda və Ciddə şəhərlərində keçirdiyi görüşlərə, Məkkədə Ümrə ziyarətində olmasına və Mədinədə Peyğəmbər məscidini ziyarət etməsinə, Türkiyə Respublikasına və Rusiya Federasiyasına işgüzar səfərlərinə dair materiallar toplanıb. Həmçinin dövlət başçısının Azərbaycana rəsmi səfərə gəlmiş Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Vyetnam Sosialist Respublikasının Prezidenti ilə görüşləri, Azərbaycan-Vyetnam biznes-forumunda çıxışı, mətbuata bəyanatı, Fransa Prezidentinin ölkəmizə işgüzar səfəri zamanı apardığı danışıqlar barədə informasiyalar yer alıb.

Azərbaycan Prezidentinin Serbiya, Rusiya, İtaliya, Malta, Fransa, Latviya, Yaponiya, Türkiyə, Almaniya və digər dövlətlərin, Avropa İttifaqı, BMT, İslam Həmrəyliyi İdman Federasiyası, Asiya İnkişaf Bankı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsini, Bakıda keçirilən beynəlxalq tədbirlərin iştirakçıları ilə görüşləri əks etdirən materiallarla bu kitabda tanış olmaq mümkündür. Nəşrə dövlət başçısının XVIII Avrasiya İqtisadi Zirvə toplantısının, “Azərbaycan və Şərqi Anadolunun türk-müsəlman əhalisinin soyqırımı” mövzusunda II Beynəlxalq Elmi Konfransın, “İslam maarifçiliyi və müasir dövr” mövzusunda Beynəlxalq Konfransın, “Bakı Ürək günləri” IV Beynəlxalq Konqresin iştirakçılarına məktublarının, Pasxa bayramı münasibətilə Azərbaycanın Pravoslav Xristian İcmasına təbrikinin, digər məktub və təbriklərinin mətnləri də daxil edilib.

Bu kitabda “Bakı-2015” I Avropa Oyunlarına hazırlıqla bağlı dövlət başçısının Avropa Oyunları parkının, Veloparkın, Bakı Su İdmanı Sarayının açılış mərasimlərində iştirakına, Bakı İdman Sarayında, Heydər Əliyev adına İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığına dair informasiyalar, I Avropa Oyunları məşəlinin alovlandırılması mərasimində çıxışı da əksini tapıb.

Çoxcildliyin 68-ci kitabına Prezident İlham Əliyevin Bakı “Ağ şəhər” bulvarında tikinti işlərinin gedişi ilə tanışlığına, “AITF-2015” XIV Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi, XXI Azərbaycan Beynəlxalq Qida Sənayesi və IX Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanışlığına dair materiallar, III Qlobal Bakı Forumunun, III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimlərində, Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının sessiyasında nitqləri daxil edilib. Həmçinin kitabda dövlət başçısının Bakıda “Rossiya-24” telekanalına, Vyetnam İnformasiya Agentliyinə müsahibələrinin mətnləri yer alıb.

Nəşrə Prezident İlham Əliyevin Astara rayonuna, Lənkəran şəhərinə səfərlərinə, bölgələrdə infrastruktur obyektlərinin açılış mərasimində iştirakına, sənaye və mədəniyyət müəssisələrində yenidənqurma işləri ilə tanışlığına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar, Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş və yekun nitqləri daxil edilib. Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də verilib.

“Azərnəşr” tərəfindən buraxılan 68-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Strateji tərəfdaşlq yeni və dinamik inkişaf mərhələsinə qədəm qoyur

## Azərbaycanla Xorvatiya arasında iqtisadi münasibətlərin yüksəliş dövrü başlayır

*Əvvəli 1-ci səh.*

Məhz bunun sayəsində Xorvatiyanın əczaçılıq şirkətləri üçün fürsət yaranacaq. Onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə edəcək, o cümlədən Azərbaycanda da fəaliyyət göstərəcəklər. Təbii ki, ticari münasibətləri inkişaf etdirəcəklər.

### Biznes potensialından tam şəkildə istifadə edilməlidir

Azərbaycanla kənd təsərrüfatı, informasiya texnologiyaları, yeyinti məhsullarının emalı sahələrində də əməkdaşlığı inkişaf etdirməyə ümid etdiyini deyən Xorvatiya Prezidenti gəmiqayırma sahəsində də vacib işlərin olduğunu və Prezident İlham Əliyevlə 6 gəmi ilə bağlı müzakirələr apardığını qeyd edib: “Ümidvaram ki, bununla bağlı danışıqlarımız davam etdiriləcək və Azərbaycan ilə biznes potensialını tam şəkildə istifadə edə biləcəyik”.

Xanım Kolinda Qrabar-Kitaroviç Xorvatiyanın Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində də iştirak etmək istəyində olduğunu söyləyib.

Azərbaycanı NATO-nun mühüm tərəfdaşı hesab edən Xorvatiya Prezidenti vurğulayıb ki, respublikamız bu quruma vacib töhfə verir: “Azərbaycan da bizim ölkə kimi müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm”.

### Müştərək investisiya layihələri də icra edilə bilər

İki ölkənin həqiqətən də strateji tərəfdaş olduğunu qətiyyətlə vurğulayan İlham Əliyev Azərbaycanın Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyində olduğunu vurğuladı. Ona görə də hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, həm də müştərək investisiya layihələri də icra edilə bilər: “Energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan “Cənub qaz dəhlizi”nin icrası ilə çox fəal məşğuldur.Yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər”.

Xorvatiya ilə bu sahədəki əməkdaşlığı çox önəmli əməkdaşlıq adlandıran dövlət başçısı iki ölkə arasında bu məsələ ilə bağlı memorandumun da imzalandığını və İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqların aparıldığını xatırladıb. Həmçinin diqqətə çatdırıb ki, Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacaq və ixrac coğrafiyasını genişləndirəcək.

Bir sözlə, ölkəmizin həm Avratlantik strukturlarla əlaqələri, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. İki dövlət arasında əczaçılıq, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələri üzrə müştərək layihələrin həyata keçirilməsi üçün münbit şərait, əlverisli investisiya mühti mövcuddur.

Bu sahələr üzrə yaxşı nəticələrin əldə olunacağına əminliyini ifadə edən İlham Əliyev artıq müvafiq göstərişlərin də verildiyini söyləyib. Çox güman ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 75 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 75 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altındakı Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Hesablama Palatasının (bundan sonra - Hesablama Palatası) statusunu, fəaliyyətinin hüquqi əsaslarını, idarəetmə və təşkilati strukturunu, habelə dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarətinin obyektləri və digər tərəflərlə münasibətlərini tənzimləyir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.0.1. **ali audit orqanı** - kənar dövlət maliyyə nəzarəti funksiyasını həyata keçirən dövlət qurumudur;

1.0.2. **kənar dövlət maliyyə nəzarəti** - bu qanunun 21.12-ci maddəsinin tələbləri nəzərə alınmaqla, bu qanunun 1.0.5-ci maddəsində nəzərdə tutulan kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən dövlət vəsaitinin və digər dövlət əmlakının istifadə edilməsinə ali audit orqanı tərəfindən həyata keçirilən müstəqil dövlət nəzarətidir;

1.0.3. **dövlət vəsaiti** - dövlət büdcəsinin, büdcədənkənar dövlət fondlarının, məqsədli dövlət fondlarının, publik hüquqi şəxslərin vəsaitləri, dövlət zəmanəti ilə alınan kreditlər, dövlət qrantları və texniki yardımlar, büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar fondlarının vəsaitidir;

1.0.4. **kənar dövlət maliyyə nəzarəti tədbirləri** - audit, analitik fəaliyyət və monitorinq formalarında həyata keçirilən kənar dövlət maliyyə nəzarətidir;

1.0.5. **kənar dövlət maliyyə nəzarətinin obyektləri** - dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və (və ya) bələdiyyələrin səhmi (payı) olan hüquqi şəxslərdir.

**Maddə 2. Hesablama Palatasının fəaliyyətinin hüquqi əsasları**

2.1. Hesablama Palatasının fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.

2.2. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti fəaliyyətini bu qanuna və Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) standartları əsasında Hesablama Palatası tərəfindən hazırlanan metodiki sənədlərə uyğun həyata keçirir.

**Maddə 3. Hesablama Palatasının statusu**

3.1. Hesablama Palatası Azərbaycan Respublikasının Konstitusiyasının 92-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən yaradılan, Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən kənar dövlət maliyyə nəzarətini həyata keçirən ali audit orqanıdır.

3.2. Hesablama Palatası müstəqil balansa, dövlət mülkiyyətində olan əmlaka, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamp və xüsusi blanklara malikdir.

**Maddə 4. Hesablama Palatasının fəaliyyət prinsipləri**

Hesablama Palatasının fəaliyyəti qanunçuluq, müstəqillik, kollegiallıq, şəffaflıq, obyektivlik, ədalətlilik və peşəkarlıq prinsiplərinə əsaslanır.

**Maddə 5. Hesablama Palatasının müstəqilliyi**

5.1. Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malikdir və onun fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.

5.2. Hesablama Palatası dövlət büdcəsindən ona ayrılmış vəsait həddində strukturunu və ştat sayını təsdiq edir.

5.3. Hesablama Palatası kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsi ilə əlaqədar olaraq kənar dövlət maliyyə nəzarəti obyektlərinin fəaliyyətini dayandıracaq müdaxilə etməməlidir.

**Maddə 6. Hesablama Palatasının fəaliyyət istiqamətləri**

6.0. Hesablama Palatasının fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.0.1. qanunla müəyyən edilmiş qaydada kənar dövlət maliyyə nəzarəti tədbirlərini həyata keçirir;

6.0.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair rəy verir;

6.0.3. həyata keçirdiyi kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri əsasında maliyyə intizamının gücləndirilməsi, maliyyə nəzarəti fəaliyyətinin planlaşdırılması məqsədilə mütəmadi təhlillər aparır, dövlət maliyyə idarəetməsinin və dövlət maliyyə nəzarətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, həmçinin dövlət vəsaitindən və digər dövlət əmlakından səmərəli və məqsədyönlü istifadə ilə bağlı tövsiyələr verir;

6.0.4. xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, ali audit orqanlarının beynəlxalq təşkilatlarına üzv olur.

**Maddə 7. Hesablama Palatasının vəzifələri**

7.0. Hesablama Palatası aşağıdakı vəzifələri yerinə yetirir:

7.0.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və müvafiq qanun layihələrinə rəy verir;

7.0.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrası barədə illik hesabatlara və müvafiq qanun layihələrinə rəy verir;

7.0.3. kənar dövlət maliyyə nəzarətinin obyektlərində aşağıdakı sahələrdə kənar dövlət maliyyə nəzarəti tədbirlərini həyata keçirir:

7.0.3.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) gəlirlərinin və kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən gəlirlərinin proqnozlaşdırılması, hesablanması, ödənilməsi və digər öhdəliklərin yerinə yetirilməsi;

7.0.3.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) xərclərinin və kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən xərclərinin proqnozlaşdırılması, hesablanması, icrası və digər öhdəliklərin yerinə yetirilməsi;

7.0.3.3. icmal büdcədən, o cümlədən dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrindən ayrılan vəsaitlərin qanunauyğun, məqsədyönlü, səmərəli və təyinatı üzrə istifadəsi;

7.0.3.4. dövlət əmlakının idarə edilməsi;

7.0.3.5. dövlət satınalmaları;

7.0.3.6. dövlət investisiyaları;

7.0.3.7. dövlət proqramlarına və layihələrinə ayrılmış vəsaitlərin istifadəsi;

7.0.3.8. qrantların və maliyyə (texniki) yardımlarının təyinatı üzrə və səmərəli istifadəsi;

7.0.3.9. ətraf mühitin mühafizəsi, təbii fəlakətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına ayrılmış vəsaitlərin istifadəsi;

7.0.3.10. daxili və xarici dövlət borcunun idarə olunması, dövlət zəmanəti ilə cəlb edilmiş borc öhdəliklərinin yerinə yetirilməsi, bağlanmış müqavilələrin şərtlərinə əməl olunması, xarici ölkələrə və şəxslərə verilən vəsaitlər üzrə öhdəliklərin icrası;

7.0.3.11. dövlət sifarişləri;

7.0.3.12. büdcədənkənar vəsaitlərin formalaşdırılması, yığılması və istifadəsi;

7.0.3.13. büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın) idarə olunması və ya idarəetməyə verilməsi;

7.0.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə Azərbaycan Respublikasının Milli Məclisinə və bu qanunda nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir;

7.0.5. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə Hesablama Palatasının kollegiyası tərəfindən qəbul edilmiş qərarlar əsasında qanunla müəyyən edilmiş müvafiq tədbirləri həyata keçirir;

7.0.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) və Azərbaycan Respublikasının Milli Məclisindən daxil olan dövlət maliyyəsi sahəsini tənzimləyən normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin layihələrinə rəy verir;

7.0.7. dövlət büdcəsinin icrasının təhlili ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yarımillik və illik məlumat verir;

7.0.8. öz fəaliyyətində dövlət, kommersiya, vergi, bank sirri, habelə məxfilik rejiminə riayət edir;

7.0.9. korrupsiyaya qarşı mübarizə sahəsində qanunamüvafiq tədbirlər həyata keçirir;

7.0.10. hüquq pozuntularına qarşı mübarizə sahəsində dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir;

7.0.11. fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məclisinə illik hesabat təqdim edir;

7.0.12. qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

**Maddə 8. Hesablama Palatasının hüquqları**

8.0. Hesablama Palatası öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları həyata keçirir:

8.0.1. kənar dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə dövlət xəzinədarlığı məlumatlarına birbaşa çıxış imkanı əldə edir;

8.0.2. dövlət vəsaitinin xəzinə hesabına daxil olmasının və istifadəsinin təsdiq olunmuş göstəricilərə uyğunluğunu təhlil edir;

8.0.3. kənar dövlət maliyyə nəzarəti obyektlərindən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatları, habelə maliyyə, mühasibat, vergi və statistik uçotu hesabatlarını və zəruri sənədləri kağız və (və ya) elektron formada alır, kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində onların elektron informasiya sistemlərinə daxil olur;

8.0.4. kənar dövlət maliyyə nəzarəti obyektlərində aidiyyəti sahələrə daxil olur, müvafiq sahələrdə müşahidələr aparır, aktivlərin və öhdəliklərin mövcudluğunu yoxlayır, inventarizasiyasını aparır, məsul şəxslərdən və maliyyə nəzarətinin predmeti ilə əlaqədar digər tərəflərdən izahatlar və məlumatlar alır;

8.0.5. kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarını tətbiq edir;

8.0.6. kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə sorğular göndərməklə dövlət qurumlarından və bələdiyyələrdən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərdən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən kağız və (və ya) elektron formada məlumat alır;

8.0.7 dövlət sirri hesab edilən məlumatları, habelə bu qanunla müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin predmetinə aid olan kommersiya, vergi və bank sirrini təşkil edən məlumatları və fərdi məlumatları əldə edir;

8.0.8. kənar dövlət maliyyə nəzarəti tədbirlərinə qarşılıqlı razılıq əsasında dövlət orqanlarının nümayəndələrini, sərbəst auditorları, auditor təşkilatlarını, ekspert və mütəxəssisləri cəlb edir;

8.0.9. kənar dövlət maliyyə nəzarəti obyektindən kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində sənədlərin təsdiq edilmiş surətlərini və bu qanunla müəyyən edilmiş hallarda əslini götürür;

8.0.10. bu qanunla müəyyən edilmiş qaydada və müddətdə aşkar edilmiş kənarlaşma hallarına dair sənədlərə və başqa sübutlara müdaxilə olunmasının qarşısını almaq məqsədilə müvafiq qaydada rəsmiləşdirilməklə kassaları, anbar və arxivləri möhürləyir;

8.0.11. kənar dövlət maliyyə nəzarətinin obyektində mühasibat uçotunun aparılmaması, yaxud qanunvericiliyin tələblərinə uyğun təşkil edilməməsi səbəbindən zəruri məlumatları əldə etmək mümkün olmadıqda, kənar dövlət maliyyə nəzarətinin obyektindən mühasibat uçotunun təmin edilməsini tələb edir;

8.0.12. kənar dövlət maliyyə nəzarətinin obyektlərində daxili nəzarətin və daxili auditin təşkilinin vəziyyətini qiymətləndirir;

8.0.13. qanunla nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxır və inzibati tənbeh tətbiq edir;

8.0.14. kənar dövlət maliyyə nəzarətinin obyektlərinin vəzifəli şəxslərini Hesablama Palatasının kollegiya iclaslarına dəvət edir;

8.0.15. öz kadr potensialının gücləndirilməsi ilə bağlı tədbirləri həyata keçirir;

8.0.16. qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsi üçün qrantlar və ianələr alır;

8.0.17. dövlət qurumları ilə qarşılıqlı fəaliyyət göstərir;

8.0.18. qanunla nəzərdə tutulmuş digər hüquqları həyata keçirir.

**Maddə 9. Hesablama Palatasının metodiki sənədləri**

9.1. Hesablama Palatasının metodiki sənədləri Hesablama Palatasının fəaliyyətinin təşkili prosedurları ilə bağlı iş qaydalarını müəyyən edən və daxili prosedur qaydalarını tənzimləyən sənədlərdir.

9.2. Hesablama Palatasının metodiki sənədləri bu qanuna və ali audit orqanlarının beynəlxalq prinsiplərinə, standartlarına və təlimatlarına uyğun olaraq qəbul edilir.

9.3. Hesablama Palatasının metodiki sənədləri Hesablama Palatasının kollegiyası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

### II fəsil
### HESABLAMA PALATASININ TƏRKİBİ VƏ İŞİNİN TƏŞKİLİ

**Maddə 10. Hesablama Palatasının tərkibi**

Hesablama Palatasının tərkibi Hesablama Palatasının üzvlərindən ibarətdir.

**Maddə 11. Hesablama Palatasının üzvləri**

11.1. Hesablama Palatasının üzvləri Hesablama Palatasının sədri, sədr müavini və 5 auditordan ibarətdir.

11.2. Hesablama Palatası üzvlərinin səlahiyyət müddəti 7 ildir.

11.3. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin azı 63 deputatının səs çoxluğu ilə təyin edilir.

11.4. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikasının Milli Məclisinin dəvəti ilə Azərbaycan Respublikasının Milli Məclisinin və onun komitələrinin iclaslarında iştirak edirlər.

**Maddə 12. Hesablama Palatasının üzvlərinə dair tələblər**

12.1. Hesablama Palatasının üzvləri dövlət idarəçiliyi, dövlət nəzarəti, hüquq, iqtisadiyyat və maliyyə sahələrində 5 ildən az olmayaraq iş təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları ola bilərlər.

12.2. Hesablama Palatasının üzvləri başqa dövlətlər qarşısında öhdəlikləri olan, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə məhkum olunmuş şəxslər ola bilməzlər.

12.3. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədri, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Baş prokuroru, Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin sədri və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri ilə, habelə bir-birləri ilə yaxın qohumluq əlaqəsində ola bilməzlər.

12.4. Hesablama Palatasının üzvlərinə aşağıdakılar qadağandır:

12.4.1. dövlət qurumlarında və yerli özünüidarəetmə orqanlarında əlavə ödənişli, seçkili və ya təyinatlı digər vəzifə tutmaq;

12.4.2. elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli fəaliyyət növü ilə məşğul olmaq;

12.4.3. şəxsən və ya digər şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

12.4.4. təşkilati-hüquqi formasından asılı olmayaraq təsərrüfat subyektlərinin idarəetməsində iştirak etmək;

12.4.5. xidməti istifadə üçün nəzərdə tutulan məlumat, maddi-texniki və maliyyə təminatı vasitələrindən özünün və ya digərlərinin şəxsi məqsədləri üçün istifadə etmək;

12.4.6. Hesablama Palatasının üzvü kimi funksional fəaliyyəti ilə bağlı etdiyi çıxışlar və ya yazdığı məqalələr üçün əlavə ödəniş almaq;

12.4.7. tətillərdə və dövlət qurumlarının işini pozan digər hərəkətlərdə iştirak etmək.

12.5. Hesablama Palatasının üzvləri səlahiyyətlərini icra etdiyi müddət ərzində heç bir siyasi partiyanın üzvü ola bilməzlər. Hesablama Palatasının üzvləri vəzifəyə təyin edildiyi zaman siyasi partiyanın üzvü olduqları hallarda həmin partiyalarda üzvlüklərinə xitam verməlidirlər.

12.6. Hesablama Palatası üzvlərinin rəsmi tədbirlər zamanı verilən hədiyyələr istisna olmaqla, vəzifə səlahiyyətlərinin icrası ilə bağlı fiziki və hüquqi şəxslərdən hədiyyə qəbul etməsi qadağandır. Rəsmi tədbirlər zamanı, o cümlədən Hesablama Palatasının üzvündən asılı olmayan səbəblərdən hədiyyə verildikdə, o, həmin hədiyyəni Hesablama Palatasına təhvil verməlidir.

12.7. Hesablama Palatasının üzvləri xidməti vəzifələrinin icrası zamanı yaranmış və ya yarana biləcək maraqların toqquşması hallarının qarşısının alınması üçün tədbirlər görməlidirlər.

**Maddə 13. Hesablama Palatasının üzvlərinin müstəqilliyi**

13.1. Hesablama Palatasının üzvləri funksional müstəqilliyə malikdirlər.

13.2. Hesablama Palatası üzvlərinin müstəqilliyi onların səlahiyyət müddətində siyasətsizləşdirilməsi, dəyişilməzliyi, Hesablama Palatasının üzvlərinin fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi ilə təmin olunur və onların statusuna uyğun maddi və sosial təminatlar verilir.

**Maddə 14. Hesablama Palatasının sədri**

14.0. Hesablama Palatasının sədri:

14.0.1. Hesablama Palatasına rəhbərlik edir və onun işini təşkil edir;

14.0.2. Hesablama Palatasının kollegiyasının iclaslarını çağırır və iclaslarına sədrlik edir;

14.0.3. Hesablama Palatasının üzvləri arasında iş bölgüsü aparır;

14.0.4. Hesablama Palatasının strukturunu, struktur bölmələrinin əsasnamələrini, ştat sayını, gəlir və xərclər smetası üzrə bölgü və dəyişiklikləri təsdiq edir;

14.0.5. Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə qurumunu yaradır;

14.0.6. Hesablama Palatasının fəaliyyəti ilə bağlı əmrlər, sərəncamlar, göstərişlər və tapşırıqlar verir;

14.0.7. Hesablama Palatasının Aparatının, struktur bölmələrinin və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun rəhbərlərini və işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onların həvəsləndirilməsi, kadr potensialının gücləndirilməsi, intizam məsuliyyəti məsələlərini həll edir;

14.0.8. Hesablama Palatasının rəylərini, hesabatlarını, məlumatlarını və təkliflərini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

14.0.9. Hesablama Palatasının səlahiyyətlərinin icrası ilə əlaqədar dövlət qurumlarının nümayəndələrinin, habelə müqavilə əsasında auditor təşkilatlarının, müstəqil auditorların, mütəxəssislərin və ekspertlərin cəlb edilməsi məsələlərini həll edir;

14.0.10. Hesablama Palatasının dövlət orqanları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətini təmin edir;

14.0.11. dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə Hesablama Palatasını təmsil edir;

14.0.12. Azərbaycan Respublikasının Milli Məclisinə Hesablama Palatasının fəaliyyəti haqqında illik hesabatı təqdim edir;

14.0.13. Hesablama Palatasının üzvlərinə dair etik davranış məsələlərinə baxan etika komissiyası yaradır;

14.0.14. qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 15. Hesablama Palatası sədrinin müavini**

15.1. Hesablama Palatası sədrinin müavini Hesablama Palatasının sədri tərəfindən müəyyən edilmiş iş bölgüsü əsasında fəaliyyət göstərir.

15.2. Hesablama Palatası sədrinin müavini:

15.2.1. Hesablama Palatasının sədri olmadıqda və ya vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

15.2.2. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə müvafiq sənədlərin hazırlanmasına, cari sənədləşmələrin icrasına nəzarəti həyata keçirir;

15.2.3. Hesablama Palatasının iş planının layihəsi üzrə ilkin materialların, Hesablama Palatasının rəylərinin, hesabatlarının, təkliflərinin, məlumatlarının hazırlanmasına və Hesablama Palatasının sədrinə təqdim edilməsinə rəhbərlik edir;

15.2.4. Hesablama Palatasının sədrinin tapşırığına əsasən Hesablama Palatasını dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edir;

15.2.5. Hesablama Palatası sədrinin və kollegiyasının tapşırıqlarını yerinə yetirir.

**Maddə 16. Hesablama Palatasının auditorları**

16.1. Hesablama Palatasının auditorları Hesablama Palatasının sədri tərəfindən müəyyən edilmiş iş bölgüsü əsasında fəaliyyət göstərirlər.

16.2. Hesablama Palatasının auditorları:

16.2.1. iş bölgüsü əsasında onlara həvalə edilmiş fəaliyyət istiqamətlərinə rəhbərlik edirlər;

16.2.2. fəaliyyət istiqamətləri üzrə iş planlarının layihələrini hazırlayırlar;

16.2.3. rəhbərlik etdikləri fəaliyyət istiqamətləri üzrə metodiki sənədlərin layihələrini hazırlayırlar;

16.2.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinə rəhbərliyi həyata keçirirlər və rəhbərlik etdikləri fəaliyyət istiqamətləri üzrə kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə dair müvafiq sənədləri Hesablama Palatasının sədrinə təqdim edirlər;

16.2.5. Hesablama Palatasının sədrinin tapşırığına əsasən Hesablama Palatasını dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edirlər;

16.2.6. Hesablama Palatası sədrinin, sədr müavininin və kollegiyasının tapşırıqlarını yerinə yetirirlər.

**Maddə 17. Hesablama Palatası üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**

17.1. Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

17.1.1. vəzifədən azad olunmaq haqqında ərizə ilə müraciət etdikdə;

17.1.2. başqa vəzifəyə təyin edildikdə və ya seçkili orqana seçildikdə;

17.1.3. barələrində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

17.1.4. bu qanunun 12-ci maddəsində göstərilən tələblər pozulmaqla vəzifəyə təyin edildikdə;

17.1.5. əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar fasiləsiz olaraq altı aydan çox müddətə vəzifəsini yerinə yetirə bilmədikdə;

17.1.6. Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə;

17.1.7. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə qərarı ilə təsdiq edildikdə;

17.1.8. məhkəmə tərəfindən ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə;

17.1.9. bu qanunun 30.2.3-cü maddəsinə uyğun olaraq intizam məsuliyyətinə cəlb edildikdə;

17.1.10. vəfat etdikdə.

17.2. Bu qanunun 17.1.1-17.1.3-cü, 17.1.6-17.1.8-ci, 17.1.10-cu maddələrində nəzərdə tutulmuş hallarda Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında sərəncamı Azərbaycan Respublikası Milli Məclisinin Sədri verir.

17.3. Bu Qanunun 17.1.4, 17.1.5 və 17.1.9-cu maddələrində nəzərdə tutulmuş hallarda Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərarı Azərbaycan Respublikası Milli Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi qəbul edir.

**Maddə 18. Hesablama Palatasının kollegiyası**

18.1. Hesablama Palatasında Hesablama Palatasının üzvlərindən və Hesablama Palatası Aparatının rəhbərindən ibarət kollegiya yaradılır.

18.2. Hesablama Palatasının kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

18.3. Hesablama Palatasının kollegiyasının iclaslarında baxılan məsələlərin nəticələri kollegiya qərarları ilə rəsmiləşdirilir.

18.4. Kollegiya qərarları iclasda iştirak edən kollegiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Hesablama Palatası sədrinin səsi həlledicidir. Hesablama Palatasının üzvü səsvermə zamanı bitərəf qala bilməz.

18.5. Hesablama Palatasının kollegiyasında qəbul edilmiş qərarlar Hesablama Palatasının sədri tərəfindən imzalanır.

18.6. Hesablama Palatası sədrinin dəvəti ilə Hesablama Palatasının kollegiyasının iclaslarında kənar dövlət maliyyə nəzarəti obyektlərinin vəzifəli şəxsləri iştirak edə bilərlər.

18.7. Hesablama Palatasının kollegiyasının iclaslarında aşağıdakı məsələlərə baxılır və qərarlar qəbul edilir:

18.7.1. Hesablama Palatasının iş planlarının təsdiqi, onlara əlavə və dəyişikliklərin edilməsi;

18.7.2. Hesablama Palatasının hesabatlarının, rəylərinin və tövsiyələrinin təsdiq edilməsi;

18.7.3. Hesablama Palatasının metodiki sənədlərinin qəbul edilməsi;

18.7.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin proqramlarının, proqramlarına dəyişikliklərin və nəticələrinin təsdiq edilməsi;

18.7.5. kənar dövlət maliyyə nəzarətinin nəticələri üzrə qərarların qəbul edilməsi;

18.7.6. Hesablama Palatasının üzvlərinin və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun hesabatlarına baxılması;

18.7.7. Hesablama Palatasının fəaliyyət strategiyasının müəyyən edilməsi;

18.7.8. Hesablama Palatasının üzvlərinə tapşırıqların verilməsi, onların intizam məsuliyyətinə cəlb edilməsi.

18.8. Kollegiya üzvlərinin təklifləri ilə Hesablama Palatasının kollegiyasında bu qanunun 18.7-ci maddəsində göstərilən məsələlərdən başqa, digər məsələlərə baxıla və onlar barədə qərarlar qəbul edilə bilər.

**Maddə 19. Hesablama Palatasının Aparatı**

19.1. Hesablama Palatasının bu qanunla müəyyən edilmiş fəaliyyətinin təşkilati, metodoloji, informasiya, maddi-texniki və maliyyə təminatının həyata keçirilməsi məqsədilə Hesablama Palatasının Aparatı yaradılır.

19.2. Hesablama Palatasının Aparatı bu qanuna və Hesablama Palatası sədrinin təsdiq etdiyi əsasnaməyə müvafiq fəaliyyət göstərir.

19.3. Hesablama Palatasının Aparatının və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun əməkdaşları dövlət qulluqçusudurlar.

**Maddə 20. Hesablama Palatasının iş planı**

20.1. Hesablama Palatası kənar dövlət maliyyə nəzarətinin vaxtında, keyfiyyətlə və səmərəli keçirilməsini təmin etmək məqsədilə illik iş planını hazırlayır və öz fəaliyyətini illik iş planı əsasında həyata keçirir.

20.2. Hesablama Palatasının illik iş planı Hesablama Palatasının cari fəaliyyəti və bu qanunun 20.1-ci maddəsinə uyğun olaraq, kənar dövlət maliyyə nəzarəti tədbirləri üzrə görüləcək işləri özündə əks etdirir.

20.3. Hesablama Palatasının illik iş planı Hesablama Palatasının üzvlərinin təklifləri əsasında tərtib edilir.

20.4. İş planında nəzərdə tutulan kənar dövlət maliyyə nəzarəti tədbirləri risk qiymətləndirilməsi yolu ilə müəyyən edilir.

20.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), Azərbaycan Respublikası Milli Məclisinin və Hesablama Palatasının üzvlərinin sorğu və təklifləri əsasında iş planına əlavələr edilə bilər.

20.6. Hesablama Palatasının illik iş planının hazırlanması və icrası qaydaları Hesablama Palatasının metodiki sənədləri ilə tənzimlənir.

### III fəsil
### HESABLAMA PALATASININ KƏNAR DÖVLƏT MALİYYƏ NƏZARƏTİ FƏALİYYƏTİ

**Maddə 21. Kənar dövlət maliyyə nəzarəti tədbirinə hazırlıq və onun planlaşdırılması**

21.1. Kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsinə hazırlıq Hesablama Palatasının növbəti il üçün iş planının tərtib və müvafiq qaydada təsdiq olunması ilə başlanır.

21.2. Təsdiq edilmiş iş planında nəzərdə tutulmuş kənar dövlət maliyyə nəzarəti tədbirlərinin icra müddətindən asılı olaraq onların planlaşdırılması həyata keçirilir. Planlaşdırılma aşağıdakı fəaliyyət və prosedurlardan ibarətdir:

21.2.1. kənar dövlət maliyyə nəzarəti tədbiri keçiriləcək kənar dövlət maliyyə nəzarətinin obyekti və həmin obyektin fəaliyyəti barədə zəruri məlumatların əldə olunması;

21.2.2. kənar dövlət maliyyə nəzarəti tədbirinin məqsədinin və miqyasının müəyyənləşdirilməsi;

21.2.3. kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramının hazırlanması;

21.2.4. kənar dövlət maliyyə nəzarəti tədbirinin işçi planının tərtib olunması.

Ardı 4-cü səh.

# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

21.3. Bu qanunun 21.2.1-ci maddəsinə əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyəti haqqında məlumatları, o cümlədən onun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını, maliyyə-iqtisadi göstəricilərini və müvafiq hesabatlarını, uçot və hesabat işlərinin vəziyyətini, keçirilmiş maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə materialları, mövcud olan riskləri, fəaliyyətinə təsir edən daxili və xarici amilləri, dövlət proqramlarının və layihələrinin icrası barədə məlumatları toplayır və bu məlumatların təhlili nəticəsində kənar dövlət maliyyə nəzarəti tədbirinin əhatə edəcəyi məsələləri müəyyənləşdirir.

21.4. Bu qanunun 21.2.2-ci maddəsinə əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsində nail olunacaq hədəfi, eləcə də kənar dövlət maliyyə nəzarəti tədbirinin əhatə etdiyi dövrü, araşdırılacaq məsələləri və kənar dövlət maliyyə nəzarəti obyektlərini müəyyənləşdirir.

21.5. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti tədbirini bu qanunun 21.2.3-cü maddəsinə əsasən kollegiyanın təsdiq etdiyi proqram əsasında həyata keçirir. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramı iş bölgüsü əsasında funksional fəaliyyət istiqaməti üzrə kənar dövlət maliyyə nəzarəti tədbirinə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü tərəfindən tərtib olunur. İki və daha çox üzvün səlahiyyətinə aid məsələləri əhatə edən kənar dövlət maliyyə nəzarəti tədbiri üzrə isə vahid proqram təsdiq olunur.

21.6. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramında nəzarət tədbirinin keçirilməsinin əsası, nəzarət tədbirinin predmeti, keçirilmə (başlanma və başa çatdırılma) müddətləri, nəzarət tədbirini aparan qrupun tərkibi, nəzarət tədbiri ilə əhatə olunan dövr və obyektlərin siyahısı göstərilir. Kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilmə müddəti müəyyən edilərkən obyektin xüsusiyyətləri, nəzarət tədbirinin miqyası, proqram ilə əhatə olunan məsələlərin mürəkkəbliyi, nəzarət tədbiri ilə əhatə olunan dövr nəzərə alınır.

21.7. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramının icrası üçün bu qanunun 21.2.4-cü maddəsinə əsasən işçi planı hazırlanır. İşçi planı kənar dövlət maliyyə nəzarətini aparacaq qrupun rəhbəri və üzvlərinin cavabdehlik sahələrini və məsuliyyətlərini dəqiqləşdirməklə, nəzarət tədbiri ilə əhatə olunan məsələlərin müfəssəl siyahısını müəyyənləşdirir.

21.8. Hesablama Palatasının vəzifəli şəxsləri maraqlar toqquşmasına səbəb ola biləcək hallarda kənar dövlət maliyyə nəzarəti tədbirinə cəlb edilə bilməzlər. Maraqlar toqquşmasına səbəb ola biləcək hallar mövcud olduqda, Hesablama Palatasının vəzifəli şəxsi nəzarət tədbirinə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvünə məlumat verməli və bu tədbirin keçirilməsindən kənarlaşdırılmalıdır. Maraqlar toqquşmasına səbəb ola biləcək hallar barədə öncədən məlumatı olan Hesablama Palatasının vəzifəli şəxsi bilərəkdən məlumat verməməsinə görə intizam məsuliyyəti daşıyır.

21.9. Kənar dövlət maliyyə nəzarəti tədbirini aparan qrupun üzvlərinə Hesablama Palatasının sədri, o olmadıqda isə sədr müavini tərəfindən imzalanmış vəsiqə verilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin vəzifəli şəxslərinə vəsiqə göstərilmədən nəzarət tədbirinin keçirilməsi qadağandır. Vəsiqədə nəzarət tədbirinin adı, keçirilməsinin əsası, başlanması və başa çatdırılması tarixləri, qrup rəhbərinin və üzvlərinin vəzifəsi, soyadı, adı, atasının adı və nəzarət tədbiri ilə əhatə olunan dövr göstərilməlidir.

21.10. Kənar dövlət maliyyə nəzarəti tədbirinin başlanmasından ən azı beş iş günü əvvəl kənar dövlət maliyyə nəzarətinin obyektlərinə Hesablama Palatasının sədri, o olmadıqda isə sədr müavini tərəfindən imzalanmış bildiriş göndərilir. Bildirişdə nəzarət tədbirinin proqramının təsdiq edildiyi kollegiya qərarının tarixi və nömrəsi, nəzarət tədbirinin əsası, adı, əhatə olunan dövr və müddəti göstərilir.

21.11. Hesablama Palatası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğuları əsasında iş planından kənar qaydada kənar dövlət maliyyə nəzarəti tədbirini keçirir və nəticələri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat təqdim edir. Hesablama Palatası sorğu daxil olduqdan 3 iş günü müddətində sorğuya baxmalı və kollegiya qərarını qəbul etməlidir.

21.12. Hesablama Palatası dövlətin səhmi (payı) olan hüquqi şəxslərdə kənar dövlət maliyyə nəzarətini həyata keçirərkən dövlət büdcəsindən, büdcədənkənar dövlət fondlarından və məqsədli dövlət fondlarından onlara ayrılmış vəsaitlərin istifadə edilməsini yoxlayır.

21.13. Azərbaycan Respublikasının Mərkəzi Bankında kənar dövlət maliyyə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmaqla həyata keçirilir.

**Maddə 22. Hesablama Palatasının audit fəaliyyəti**

22.1. Hesablama Palatasının audit fəaliyyəti kənar dövlət maliyyə nəzarəti obyektlərinin gəlirlərinin, xərclərinin, əmlakının, öhdəliklərinin, zəmanətlərinin, digər aktiv və passivlərinin idarə olunmasının, maliyyə əməliyyatlarının, maliyyə, mühasibat, vergi və statistika uçotu hesabatlarının düzgünlüyünün və tamlığının, iqtisadi və maliyyə fəaliyyətinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi, daxili nəzarət sistemlərinin qiymətləndirilməsi məqsədilə həyata keçirilir.

22.2. Hesablama Palatası audit fəaliyyətini aşağıdakı audit növləri əsasında həyata keçirir:

22.2.1. maliyyə auditi (maliyyə əməliyyatları və hesabatlarının uyğunluğunun, düzgünlüyünün, dürüstlüyünün və tamlığının müəyyənləşdirilməsi, maliyyə idarəçiliyi, daxili nəzarət və əlaqəli informasiya sistemlərinin qiymətləndirilməsi);

22.2.2. səmərəlilik (performans) auditi (proqram, layihə, fəaliyyət, əməliyyat, idarəetmə və informasiya sistemlərinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi);

22.2.3. uyğunluq auditi (kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən qüvvədə olan hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi);

22.2.4. digər audit növləri.

22.3. Auditlərin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Hesablama Palatasının metodiki sənədləri ilə tənzimlənir.

22.4. Audit başlamazdan əvvəl audit qrupu kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsi ilə bağlı bu qanunun 21.9-cu maddəsində nəzərdə tutulan vəsiqəni, audit qrupunun üzvlərinin xidməti vəsiqələrini kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edir, auditin hüquqi əsasları, predmeti, müddəti, audit zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat verir.

22.5. Audit qrupu Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti sahəsinə aid olmayan məsələləri yoxlaya və həmin məsələlərlə bağlı materiallarla tanış ola bilməz.

22.6. Audit qrupunun fəaliyyətinə nəzarəti auditə rəhbərlik edən Hesablama Palatasının üzvü həyata keçirir.

22.7. Kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən audit qrupuna zəruri şərait yaradılmalı, məsul şəxslər ayrılmalı, auditin predmetinə aid tələb olunan digər tədbirlər həyata keçirilməlidir. Audit qrupu texniki vasitələrdən (audio, video və foto avadanlıqlarından, surətçıxaran və skanerlərdən) istifadə etməzdən əvvəl bu barədə kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya onun nümayəndəsinə yazılı formada və onların imzası alınmaqla məlumat verməlidir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya onun nümayəndəsi məlumatın alınması faktını imzası ilə təsdiqləməkdən imtina etdikdə audit qrupu tərəfindən imtina aktı tərtib edilir və bu barədə hesabatda müvafiq qeydlər aparılır. Bu hal audit qrupunun texniki vasitələrdən istifadə etmək hüququnu aradan qaldırmır.

22.8. Audit zamanı ciddi maliyyə pozuntuları, habelə sənədlərin saxtalaşdırılması və təhrif olunması halları aşkar edilərsə, belə halların gizlədilməsinin və ya davam etməsinin qarşısının alınması məqsədilə kənar dövlət maliyyə nəzarəti obyektinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə audit qrupu tərəfindən sənədlərin adı və vərəqlərinin sayı göstərilməklə akt tərtib edilir və onun əsasında sənədlərin əsli götürülür. Bu zaman aktda müvafiq qeydlər aparılmaqla, həmin sənədlərin təsdiq edilmiş surətləri, habelə siyahısı kənar dövlət maliyyə nəzarətinin obyektində saxlanılır. Aktın bir nüsxəsi kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi aktı qəbul etməkdən imtina etdikdə bu barədə audit qrupu tərəfindən imtina aktı tərtib edilir və auditin yekunu üzrə hesabatda müvafiq qeydlər aparılır.

22.9. Audit zamanı aşkar edilmiş kənarlaşma hallarına dair sənədlərə və sübutlara müdaxilə olunmasının qarşısını almaq məqsədilə audit qrupu tərəfindən kənar dövlət maliyyə nəzarəti obyektinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə akt tərtib edilməklə kassalar, anbar və arxivlər möhürlənir. Möhürlənmiş kassalar, anbar və arxivlərdən möhürün açılması hüququ audit qrupuna aiddir və bu barədə həmin aktda müvafiq qeydlər aparılır. Aktın bir nüsxəsi kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi aktı qəbul etməkdən imtina etdikdə, bu qanunun 22.8-ci maddəsinin dördüncü cümləsində müəyyən edilmiş tədbirlər görülür. Kassalar, anbar və arxivlərin möhürlənməsi həmin sahələrdə nəzarət tədbiri bitdikdən və nəticəsi aktlaşdırıldıqdan sonra açılmalıdır. Möhürlənmə auditin başa çatması tarixindən artıq müddətə davam edə bilməz.

22.10. Bu qanunun 22.8-ci və 22.9-cu maddələrində göstərilən hallarda audit qrupu kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyəti ilə bağlı vəzifələrinin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə şərait yaratmalı və buna maneə törətməməlidir.

22.11. Audit qrupu tərəfindən auditə dair hesabat tərtib edilir. Audit zamanı aşkar edilmiş faktlar hesabatda aydın və dəqiq göstərilir. Hesabat audit qrupunun bütün üzvləri tərəfindən imzalanır və bir nüsxəsi kənar dövlət maliyyə nəzarətinin obyektinə təqdim edilir.

22.12. Kənar dövlət maliyyə nəzarətinin obyekti auditə dair tərtib edilmiş hesabatla tanış olmalı, bununla əlaqədar qeyd, irad və rəyini hesabatın təqdim edildiyi tarixdən 20 gün müddətində yazılı şəkildə bildirməlidir. Kənar dövlət maliyyə nəzarəti obyektinin qeyd, irad və rəyi hesabata əlavə olunur. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi hesabatı qəbul etməkdən və qeyd, irad və rəy bildirməkdən imtina etdikdə, bu barədə audit qrupu tərəfindən hesabatda müvafiq qeydlər aparılır və hesabatın surəti onun alınmasını təsdiq edən istənilən vasitə ilə kənar dövlət maliyyə nəzarətinin obyektinə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən audit hesabatı ilə bağlı qeyd, irad və rəyin bildirilməsinin son günündən 5 iş günü ərzində hesabatla bağlı qeyd, irad və rəyin Hesablama Palatasına təqdim edilməməsi kənar dövlət maliyyə nəzarətinin obyektinin rəhbəri tərəfindən həmin hesabatla razı olma kimi qiymətləndirilir.

22.13. Auditin nəticələri üzrə auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü tərəfindən auditor hesabatı tərtib edilir. Auditor hesabatı auditə rəhbərliyi həyata keçirən Hesablama Palatası üzvünün auditin nəticələri əsasında qiymətləndirici qənaətlərini və mövqeyini əks etdirən, rəyini ifadə edən sənəddir. Auditor hesabatında kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsinin əsası, məqsədi, predmeti və obyekti, öyrənilmiş sənədlərin, alınması barədə müraciət edilmiş və təqdim edilməsindən imtina edilmiş sənədlərin siyahısı, auditin keçirilməsinə maneçilik törədilməsi halları və onların baş verməsində təqsirkar olan vəzifəli şəxslər, audit zamanı aşkar edilmiş pozuntular barədə məlumatlar əks olunur. Auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü auditor hesabatında nəzarət tədbirinin predmetinə aid sahədə qanunvericiliyin təkmilləşdirilməsi, funksional idarəetmədə mövcud olan boşluqların aradan qaldırılması, hüquq pozuntuları nəticəsində dövlətə dəyən zərərin ödənilməsi, qanunsuz xərclər və cinayət tərkibinin olduğu ehtimal edilən faktlar üzrə materialların hüquq mühafizə orqanlarına göndərilməsi, dövlət vəsaitindən və digər dövlət əmlakından səmərəsiz və təyinatdan kənar məqsədlərlə istifadəsinin qarşısının alınması üçün görülməli olan tədbirlərin xarakteri və məzmunu barədə təkliflərini bildirir və sonda aşkar edilmiş faktlara və kənar dövlət maliyyə nəzarətinin obyektinin fəaliyyətinə auditor qiymətləndirməsini həyata keçirir və müvafiq təkliflərini verir.

22.14. Auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü auditor hesabatını Hesablama Palatasının kollegiyasının müzakirəsinə çıxarılması üçün Hesablama Palatasının sədrinə təqdim edir. Hesablama Palatasının kollegiyası auditor hesabatına münasibət bildirir, aşkar edilmiş nöqsan, çatışmazlıq və hüquq pozuntularının aradan qaldırılması, tələblərin, tövsiyələrin və təkliflərin yerinə yetirilməsi üzrə aidiyyəti tərəfləri müəyyənləşdirir və müvafiq qərarlar qəbul edir.

22.15. Audit qrupunun üzvləri auditin nəticələri üzrə Hesablama Palatasının kollegiyası tərəfindən qərar qəbul edilənədək həmin nəticələri elan edə bilməzlər.

22.16. Hesablama Palatası tərəfindən auditin nəticələri barədə Azərbaycan Respublikasının Milli Məclisinə məlumat verilir. Audit müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında, habelə onun yaratdığı dövlət orqanlarında (qurumlarında) həyata keçirildikdə nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) da məlumat təqdim olunmalıdır.

**Maddə 23. Hesablama Palatasının analitik fəaliyyəti**

23.1. Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti ilə əlaqədar analitik fəaliyyəti aşağıdakı formada həyata keçirilir:

23.1.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinin, gəlirlərinin, xərclərinin, habelə bələdiyyə gəlirlərinin və xərclərinin proqnozlaşdırılması, hesablanması və icrası, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrasına dair layihələrin və hesabatların, müvafiq büdcələrdən ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsinin təhlili;

23.1.2. icmal büdcədən, o cümlədən dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarından (təsisatlarından) maliyyələşmənin aparılması, büdcə vəsaitlərinin xəzinə hesabına vaxtında daxil olması və müvafiq göstəricilərə uyğunluğu, büdcə vəsaitlərinin müvafiq hesablarda hərəkəti barədə kredit təşkilatlarından alınan məlumatların və dövlət borclanmalarının təhlili, Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim olunmuş dövlət maliyyəsi sahəsini tənzimləyən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin layihələrinə rəy verilməsi;

23.1.3. kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində müəyyən məsələ və mövzu üzrə təhlil;

23.1.4. kənar dövlət maliyyə nəzarəti obyektlərinin fəaliyyətləri üzrə maliyyə hesabatlarının təhlili.

23.2. Bu qanunun 23.1.1-23.1.3-cü maddələri ilə müəyyən edilmiş analitik fəaliyyətin nəticələrinə Hesablama Palatasının kollegiyasında baxılır. Analitik fəaliyyətin nəticələri qərar, rəy, arayış, təklif və tövsiyələr formalarında rəsmiləşdirilir.

**Maddə 24. Hesablama Palatasının büdcə prosesində iştirakı**

24.1. Hesablama Palatası bu qanunla və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) layihələrinə, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin icrasına, müvafiq qanunların layihələrinə və hesabatlara dair rəy verir.

24.2. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə bu qanuna və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rəy verilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisindən Hesablama Palatasına daxil olduqdan sonra Hesablama Palatası 15 gün müddətində rəy verir və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

24.3. Bu qanunun 24.2-ci maddəsi Hesablama Palatası tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim edilmiş büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə rəy verilməsi qaydalarına da şamil olunur.

24.4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib olunmuş dövlət büdcəsinin icrası barədə aylıq, rüblük və illik hesabatların və dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar və dövlət xəzinədarlığı tərəfindən dövlət büdcəsinin gəlirləri barədə hesabatların və digər zəruri sənədlərin bir nüsxəsi kağız və elektron daşıyıcılarda Hesablama Palatasına təqdim edilir.

24.5. Dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi rəy verilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisindən daxil olduğu gündən 10 gün müddətində Hesablama Palatası onlara rəy verir və öz rəyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

24.6. Bu qanunun 24.5-ci maddəsi Hesablama Palatası tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim edilmiş büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin icrası barədə illik hesabat və qanun layihələrinə də şamil olunur.

24.7. Hesablama Palatası tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin layihəsinə, eləcə də büdcəsinin icrası barədə hesabata rəyin verilməsi müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş qaydalara uyğun həyata keçirilir.

**Maddə 25. Hesablama Palatasının monitorinq fəaliyyəti**

25.1. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti obyektlərinin maliyyə-təsərrüfat fəaliyyəti üzrə ayrı-ayrı əməliyyatlarının və kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə Hesablama Palatasının kollegiya qərarlarının yerinə yetirilməsi vəziyyətinin müəyyən edilməsi, mütəmadi və davamlı müşahidə aparılmaqla dövlət qurumlarının elektron informasiya sistemləri üzrə məlumatların toplanması məqsədilə monitorinq fəaliyyətini həyata keçirir.

25.2. Kənar dövlət maliyyə nəzarəti obyektindən monitorinqin predmeti üzrə bu qanunla müəyyən edilmiş qaydada müvafiq məlumatlar əldə edilə və həyata keçirilmiş əməliyyatlar üzrə yerində baxış keçirilə bilər.

25.3. Monitorinqin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Hesablama Palatasının metodiki sənədlərinə uyğun olaraq həyata keçirilir.

**Maddə 26. Kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı cinayət tərkibinin əlamətləri olan hüquqpozmalar aşkar edildikdə həyata keçirilən tədbirlər**

26.1. Kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı cinayət tərkibinin əlamətləri olan hüquqpozmaların aşkar edildiyi ehtimal edildikdə, kənar dövlət maliyyə nəzarəti tədbirinə rəhbərliyin həvalə edildiyi Hesablama Palatasının üzvü auditor hesabatı tərtib edir və müvafiq materiallarla birlikdə Hesablama Palatası kollegiyasının müzakirəsinə çıxarılması üçün Hesablama Palatasının sədrinə təqdim edir.

26.2. Hesablama Palatasının kollegiyası aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərini ehtimal edərsə, kənar dövlət maliyyə nəzarətinin nəticələri barədə müvafiq materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

**Maddə 27. Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə baxılması**

27.1. Hesablama Palatası tərəfindən aparılan kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə Hesablama Palatasının kollegiyasında baxılır.

27.2. Hesablama Palatasının kollegiyasında kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsi üzrə auditor hesabatının təsdiq edilməsi və ya təsdiq edilməməsi barədə qərarlardan biri qəbul edilir.

27.3. Auditor hesabatının təsdiq edilməsi barədə Hesablama Palatasının kollegiya qərarında aşağıdakılar göstərilir:

27.3.1. qərarın tarixi və nömrəsi;

27.3.2. Hesablama Palatasının adı, kənar dövlət maliyyə nəzarəti obyektinin adı;

27.3.3. pozuntuların təfərrüatı, əsaslandırıcı sübutlar və pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

27.3.4. aşkar olunmuş pozuntuların aradan qaldırılması üçün görülməli tədbirlər;

27.3.5. kollegiya qərarının icrasına nəzarətin həvalə edildiyi Hesablama Palatasının üzvü;

27.3.6. qərardan şikayət vermə müddəti və qaydası.

27.4. Hesablama Palatasının kollegiyasının iclasında auditor hesabatının təsdiq edilməməsi üçün aşağıdakılar əsas ola bilər:

27.4.1. auditor hesabatının kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramında təsbit olunmuş tələblərə uyğunsuzluğu;

27.4.2. kənar dövlət maliyyə nəzarəti tədbirinin tam həcmdə həyata keçirilməməsi;

27.4.3. təqdim edilmiş auditor hesabatında təkliflərin olmaması və ya hazırlanmış təkliflərin keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticələrinə uyğunsuzluğu.

27.5. Auditor hesabatı Hesablama Palatasının kollegiyasında təsdiq edilmədikdə, uyğunsuzluqların aradan qaldırılması üçün əlavə tədbirlərin keçirilməsi barədə tapşırıq verilir və bunun müddətləri müəyyən olunur.

27.6. Hesablama Palatasının kollegiya qərarı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi və şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin obyektlərinə və nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəflərə göndərilir.

27.7. Hesablama Palatasının qərarlarının icrası kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən təmin edilməli və qərarda başqa müddət müəyyən edilməmişdirsə, görülmüş tədbirlər barədə qərarların onlara çatdığı gündən bir ay müddətində Hesablama Palatasına məlumat verilməlidir.

27.8. Hesablama Palatası kollegiyasının qərarının ləğv edilməsi və ya onlara dəyişikliklərin edilməsi Hesablama Palatasının kollegiyası tərəfindən həyata keçirilir.

27.9. Hesablama Palatası kollegiyasının qərarlarından kənar dövlət maliyyə nəzarətinin obyekti, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanı (qurumu) və bələdiyyə tərəfindən qərarların onlara çatdığı gündən 30 gün müddətində Hesablama Palatasına şikayət verilə bilər. Hesablama Palatası verilən şikayətə 30 gün müddətində baxıb şikayətin təmin edilməsi, qismən təmin edilməsi və ya təmin edilməsindən imtina barədə qərarlardan birini qəbul etməlidir. Qəbul edilmiş qərar kənar dövlət maliyyə nəzarətinin obyektinə, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanına (qurumuna) və bələdiyyəyə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanı (qurumu) və bələdiyyə bu qanunun 27.9-cu maddəsinə uyğun olaraq Hesablama Palatası kollegiyasının qəbul etdiyi qərardan razı qalmadıqda məhkəməyə şikayət verə bilər.

**Maddə 28. Hesablama Palatasının təqdimatları**

28.1. Hesablama Palatasının qərarları kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən əsassız olaraq icra edilmədikdə həmin obyektin xəzinə və bank hesabları üzrə (müdafiə olunan xərc maddələri istisna olmaqla) əməliyyatların dayandırılması barədə müvafiq xəzinə orqanlarına və (və ya) müvəkkil banklara Hesablama Palatasının kollegiyasının qərarı əsasında təqdimatlar verilir və bu barədə Azərbaycan Respublikasının Milli Məclisinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və kənar dövlət maliyyə nəzarətinin obyektinə məlumat verilir.

28.2. Hesablama Palatasının təqdimatlarının əsassız olaraq icra edilməməsinə görə vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

28.3. Hesablama Palatasının kollegiyasının qərarı əsasında verilmiş təqdimat həmin qərarın icrası təmin edilənədək qüvvədə qalır.

28.4. Təqdimatın ləğv edilməsi və ya onlara dəyişikliklərin edilməsi Hesablama Palatasının kollegiyası tərəfindən həyata keçirilir.

28.5. Bu qanunun 28.1-ci maddəsində müəyyən edilmiş qaydada təqdimatın verilməsi kənar dövlət maliyyə nəzarətinin obyekti və ya nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəfi kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsi üzrə Hesablama Palatası kollegiyasının qərarının icrasından azad etmir.

28.6. Təqdimatlardan kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən təqdimatların onlara çatdığı gündən 30 gün müddətində Hesablama Palatasına şikayət verilə bilər. Hesablama Palatası verilən şikayətə 30 gün müddətində baxıb şikayətin təmin edilməsi, qismən təmin edilməsi və ya təmin edilməsindən imtina barədə qərarlardan birini qəbul edir. Qəbul edilmiş qərar kənar dövlət maliyyə nəzarətinin obyektinə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti və Hesablama Palatası kollegiyasının qəbul etdiyi qərardan razı olmadıqda məhkəməyə şikayət verə bilər.

**IV fəsil**
**QANUNUN POZULMASINA GÖRƏ MƏSULİYYƏT**

**Maddə 29. Hesablama Palatasının üzvlərinə və işçilərinə dair etik davranış qaydaları**

29.1. Hesablama Palatası ali audit orqanlarının beynəlxalq standartlarına uyğun olaraq etik davranış qaydalarını qəbul edir. Hesablama Palatasının üzvləri və işçiləri həmin qaydalara riayət etməlidirlər.

29.2. Hesablama Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına əməl edilməməsi məsələlərinə Hesablama Palatasının sədri tərəfindən yaradılan etika komissiyasında baxılır.

**Maddə 30. Hesablama Palatası üzvlərinin məsuliyyəti**

30.1. Hesablama Palatasının üzvləri aşağıda göstərilən hallarda intizam məsuliyyətinə cəlb edilə bilərlər:

30.1.1. bu qanunla onlara həvalə olunmuş vəzifələri yerinə yetirmədikdə və ya lazımi şəkildə yerinə yetirmədikdə;

30.1.2. Hesablama Palatası kollegiyasının iclaslarının normal gedişini, iş qaydasını pozduqda və qərarlarının qəbul edilməsinə mane olduqda;

30.1.3. Hesablama Palatasının və öz adına xələl gətirən hərəkətlər etdikdə;

30.1.4. korrupsiya hüquqpozmaları törətdikdə (inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda);

30.1.5. kollegiya iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə.

30.2. Hesablama Palatasının üzvləri bu qanunun 30.1-ci maddəsində göstərilən əsaslarla intizam məsuliyyətinə cəlb olunduqda, onların barəsində aşağıdakı intizam tənbeh tədbirləri tətbiq edilə bilər:

30.2.1. xəbərdarlıq;

30.2.2. töhmət;

30.2.3. Hesablama Palatasının üzvlüyünə xitam verilməsi.

30.3. Hesablama Palatasının üzvlərinə bu qanunun 30.2.1-ci və 30.2.2-ci maddələrində göstərilən intizam tənbeh tədbirlərini etika komissiyasının rəyi əsasında Hesablama Palatasının sədri, bu qanunun 30.2.3-cü maddədə göstərilən intizam tənbeh tədbirini isə Azərbaycan Respublikasının Milli Məclisi tətbiq edir.

30.4. Hesablama Palatasının üzvü üzrsüz səbəbdən ardıcıl olaraq üç dəfə və ya il ərzində altı dəfə kollegiya iclaslarında iştirak etmədikdə, bu qanunun 30.2.3-cü maddəsində göstərilən intizam tənbeh tədbirinin tətbiqi məqsədilə Hesablama Palatasının sədri tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə müraciət olunur.

**Maddə 31. Kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə əlaqədar Hesablama Palatasının vəzifəli şəxslərinin məsuliyyəti**

Kənar dövlət maliyyə nəzarəti tədbirini həyata keçirən Hesablama Palatasının vəzifəli şəxsləri vəzifələrini layiqincə yerinə yetirməməsinə, kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyətinə müdaxilə edilməsinə, nəzarət tədbiri zamanı əldə edilmiş məlumatların yayılmasına və etik davranış qaydalarına riayət edilməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 32. Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti fəaliyyəti ilə əlaqədar qurumların və onların vəzifəli şəxslərinin məsuliyyəti**

32.1. Qanunvericilik, icra, məhkəmə hakimiyyəti orqanları və bələdiyyələr, dövlət qurumları, bütün hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər Hesablama Palatasının səlahiyyətlərinin həyata keçirilməsinə kömək etməyə borcludurlar və bu qanunun 8.0.7-ci maddəsinin tələbləri nəzərə alınmaqla, bu məqsədlə zəruri sənəd və məlumatları, habelə kommersiya, vergi və bank sirri təşkil edən sənəd və məlumatları, fərdi məlumatları tələb olunan vaxtda və formada təqdim etməli, informasiya mənbələrinə çıxış imkanı yaratmalıdırlar.

32.2. Kənar dövlət maliyyə nəzarəti fəaliyyəti ilə əlaqədar kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən Hesablama Palatasının sorğularının tələb olunan qaydada cavablandırılmamasına, Hesablama Palatasının əməkdaşlarının kənar dövlət maliyyə nəzarəti obyektlərinə daxil olmasına, kənar dövlət maliyyə nəzarəti tədbirinin aparılmasına maneçilik törədilməsinə, zəruri məlumatların və ya sənədlərin, habelə bu qanunun 8.0.7-ci maddəsinin tələbləri nəzərə alınmaqla, kommersiya, vergi və bank sirri təşkil edən sənəd və məlumatların, fərdi məlumatların vaxtında və tələb olunan səviyyədə təqdim edilməməsinə və ya gecikdirilməsinə, yalan və ya dürüst olmayan məlumatların təqdim edilməsinə, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatların, habelə maliyyə, mühasibat, vergi və statistik uçotu hesabatlarının vaxtında təqdim edilməməsinə, hesabatlarda informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, elektron informasiya sistemlərinə çıxış imkanlarının yaradılmamasına və ya buna maneçilik törədilməsinə, Hesablama Palatasının qərarlarının əsassız icra edilməməsinə görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

32.3. Hesablama Palatasının funksional fəaliyyətinin icrası ilə bağlı maneələr yaradıldıqda Hesablama Palatası tərəfindən bu barədə Azərbaycan Respublikasının Milli Məclisinə və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilir.

*Ardı 5-ci səh.*

# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

**V fəsil**
**HESABLAMA PALATASININ FƏALİYYƏTİNİN TƏMİNATLARI**

**Maddə 33. Hesablama Palatasının fəaliyyətinin maliyyələşdirilməsi**

33.1. Hesablama Palatasının fəaliyyəti üzrə xərclər Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilir.
33.2. Hesablama Palatasının fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.
33.3. Hesablama Palatasının saxlanılması üçün ayrılan illik vəsait Hesablama Palatasının normal fəaliyyət göstərməsinə yönələn zəruri xərcləri özündə birləşdirir.
33.4. Hesablama Palatası tərəfindən Hesablama Palatasının xərclər smetasının layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.
33.5. Hesablama Palatasının xərclər smetası Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən dövlət büdcəsinin layihəsinə baxılarkən ayrıca təsdiq edilir.

**Maddə 34. Hesablama Palatasının üzvlərinin təminatları**

34.1. Hesablama Palatası sədrinin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavininin aylıq vəzifə maaşına və təminatlarına bərabərdir.
34.2. Hesablama Palatası sədrinin müavininin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavininin aylıq vəzifə maaşına və təminatlarına bərabərdir.
34.3. Hesablama Palatasının auditorlarının aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrlərinin aylıq vəzifə maaşlarına və təminatlarına bərabərdir.

**Maddə 35. Hesablama Palatasının üzvlərinin əmək məzuniyyəti**

35.1. Hesablama Palatasının üzvlərinə hər il 40 təqvim günü müddətində əmək məzuniyyəti verilir.
35.2. Hesablama Palatasının üzvlərinə əmək məzuniyyətinə çıxarkən bu qanunun 34-cü maddəsinə uyğun olaraq müavinət verilir.
35.3. Hesablama Palatasının üzvlərinə əmək məzuniyyəti Hesablama Palatasının sədri tərəfindən verilir.
35.4. Hesablama Palatasının üzvü əmək məzuniyyətindən istifadə etmədikdə, ona həmin il (illər) üçün istifadə edilməmiş məzuniyyətə görə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir.

**Maddə 36. Hesablama Palatasının Təlim Mərkəzi**

36.1. Hesablama Palatasına yeni təyin edilmiş və Hesablama Palatasında çalışan işçilərin bilik və bacarıqlarının, peşə hazırlıqlarının artırılması, kadr potensialının yüksəldilməsi, ali audit orqanlarının beynəlxalq standartlarının və qabaqcıl təcrübələrin öyrənilməsi işinin təşkil edilməsi məqsədilə Hesablama Palatasının Təlim Mərkəzi yaradılır.
36.2. Hesablama Palatasının Təlim Mərkəzinin fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

**VI fəsil**
**YEKUN MÜDDƏALAR**

**Maddə 37. Hesablama Palatasının hesabatlılığı**

37.1. Hesablama Palatasının fəaliyyəti haqqında hesabatlar "Azərbaycan Respublikasının Milli Məclisinin Məlumatı"nda dərc edilir.
37.2. Hesablama Palatası fəaliyyəti barədə kütləvi informasiya vasitələrinə məlumatlar verir.
37.3. Hesablama Palatasının fəaliyyəti barədə məlumatlar verildikdə aşağıdakılar nəzərə alınır:
37.3.1. kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə bağlı məlumatlar, onların nəticələrinə dair materiallar Azərbaycan Respublikası Milli Məclisinə göndərildikdən sonra verilir;
37.3.2. rəsmi məlumatların məzmunu və forması Hesablama Palatasının kollegiyası tərəfindən müəyyən olunur;
37.3.3. məlumatlar Hesablama Palatasının sədri, onun tapşırığı ilə Hesablama Palatasının sədrinin müavini, auditorları və ya Hesablama Palatasının digər vəzifəli şəxsləri tərəfindən verilir;
37.3.4. Hesablama Palatası fəaliyyəti haqqında məlumatları verdikdə dövlət sirri, kommersiya sirri və qanunla mühafizə olunan digər sirlərin qorunması haqqında tələblərə riayət olunur.
37.4. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti ilə əlaqədar xüsusi informasiya bülletenləri, jurnal və digər nəşrlər dərc etdirə bilər.

**Maddə 38. Hesablama Palatasının auditi**

Hesablama Palatasının maliyyə auditi Hesablama Palatasının müraciəti əsasında və ya Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlar və ya "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərən auditor təşkilatları tərəfindən həyata keçirilə bilər.

**Maddə 39. Beynəlxalq əməkdaşlıq**

39.1. Hesablama Palatasının beynəlxalq əməkdaşlığı xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və razılaşmalara əsasən həyata keçirilir.
39.2. Hesablama Palatası bu qanuna, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq, onun səlahiyyətlərinə aid edilən məsələlər üzrə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla qarşılıqlı münasibətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir.
39.3. Hesablama Palatası beynəlxalq təşkilatlara üzv ola, beynəlxalq təşkilatlarla məsləhətləşmə və birgə layihələr həyata keçirə, fəaliyyətinin müxtəlif sahələri üzrə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla əməkdaşlıq haqqında müqavilələr bağlaya bilər.
39.4. Hesablama Palatası xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla, ali audit qurumlarının beynəlxalq təşkilatları ilə birgə və paralel auditlər və təhlillər həyata keçirə bilər.

**Maddə 40. Məxfilik**

Hesablama Palatasının üzvləri, işçiləri və Hesablama Palatasının fəaliyyəti ilə əlaqədar cəlb edilən ekspert, mütəxəssis və sərbəst auditorlar xidməti məlumatları, o cümlədən qanunla qorunan dövlət, bank, kommersiya və sair sirlərə aid olan məlumatları qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, açıqlaya bilməzlər.

**Maddə 41. Yekun müddəa**

Bu qanun qüvvəyə mindiyi gündən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 700-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 480; 2001, № 11, maddə 676, № 12, maddə 744; 2004, № 4, maddə 202, № 9, maddə 667; 2005, № 2, maddə 62; 2007, №7, maddə 712; 2008, № 5, maddə 339; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 173, №4, maddə 276; 2016, № 7, maddə 1229; 2017, № 12 (I kitab), maddə 2213) və "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 5 mart tarixli 269-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 117; 2006, № 2, maddə 67; 2007, № 11, maddə 1081; 2008, № 8, maddə 699; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**
1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.
2. Müəyyən edilsin ki:
2.1. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.4-cü, 7.0.6-cı, 7.0.7-ci, 12.3-cü, 20.5-ci maddələrində, 21.11-ci maddəsinin birinci cümləsində (hər iki halda), 21.13-cü maddəsində, 22.16-cı maddəsinin ikinci cümləsində (hər iki halda), 24.7-ci, 28.1-ci, 32.3-cü və 33.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
2.2. həmin qanunun 7.0.4-cü, 7.0.6-cı, 7.0.7-ci, 20.5-ci maddələrində, 21.11-ci maddəsinin birinci cümləsində (hər iki halda), 21.13-cü, 22.16-cı maddəsinin ikinci cümləsində (hər iki halda), 24.7-ci, 28.1-ci və 32.3-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;
2.3. həmin qanunun 12.3-cü və 33.4-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.
3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

## Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**
1. Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında 2018-ci il iyunun 29-da Brüssel şəhərində imzalanmış saziş təsdiq edilsin.
2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Koreya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nı "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1064-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**
Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429; № 5, maddələr 915, 927; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 iyul tarixli 195 nömrəli fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 18-ci hissə əlavə edilsin:
"18. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin adından:
18.0. Məcəllənin 469.1-ci (icbari tibbi sığortaya münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - İdarə Heyətinin sədri, sədrin müavinləri, İdarə Heyətinin üzvləri, departament, idarə, xidmət, filial və nümayəndəliklərinin rəhbərləri, şöbə müdirləri, koordinatorlar, baş məsləhətçilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2018-ci il*

## "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanını "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1064-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**
"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 20; 2003, № 10, maddə 585; 2008, № 8, maddə 716; 2016, № 6, maddə 1060; 2018, № 2, maddə 212) 2-ci hissəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:
"həmin qanunun 12-ci maddəsinin ikinci hissəsində "qurum" dedikdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2018-ci il*

# Müttəfiqlərlə rəqiblərin ticarət müharibəsi

## ABŞ-ın iqtisadi sanksiyaları qlobal depressiyaya səbəb ola bilərmi

Hamı bir-birinə qarışıb, kimin dost, kimin düşmən olduğu bəlli deyil. Bunu heç kim gözləməsə də, hamı qaçılmaz və acı reallıqla üzləşdi. Hadisələr elə sürətlə inkişaf etdi ki, kələfin ucunu heç kim tuta bilmir. Okeanın o tayındakı Ağ evin tətbiq etdiyi iqtisadi sanksiyalar ABŞ-ın rəqiblərinin əsəblərini tarıma çəksə də, elə NATO alyansı daxilində doğurduğu narazılıqlar da səngimək əvəzinə getdikcə qızışan ticarət müharibəsindən xəbər verir. "BBC"nin rus xidməti Donald Trampın üç - Çin, Avropa və Amerika cəbhəsində başladığı ticarət müharibəsində geri çəkilmədən israrla irəli getdiyini bildirir. Bu mövzu bütün Qərb mətbuatında geniş işıqlandırılır və demək olar ki, hər gün manşetə çıxarılır. Oxucuların marağını nəzərə alaraq problemlə bağlı dünyanın aparıcı KİV-nin xülasəsini təqdim edirik.

Sanksiyalar tətbiq edilən dövlətlərin, şirkətlərin, təşkilatların və fərdi adamların siyahısı uzandıqca vəziyyət daha da mürəkkəbləşir, kimin haqlı, kimin haqsız olduğu bilinmir. Artıq ticarət müharibəsi adını alan iqtisadi sanksiyalar hətta uzun illər müttəfiq sayılan aparıcı dövlətlərin münasibətlərində gərginlik yaradır, ciddi iqtisadi fəsadlara, dövlətlərarası münasibətlərin ağırlaşmasına səbəb olur. Bu baxımdan ABŞ-la Çin, İran və Rusiya arasındakı çəkişmələr müəyyən qədər başa düşülsə də, Ağ evin eyni jestlə, müttəfiqlərinin - Türkiyənin və Avropa dövlətlərinin üstünə sanksiyalarla yeriməsi ilk növbədə, müttəfiqlərin arasında anlaşılmazlıq yaradır və ciddi suallara səbəb olur.

ABŞ-ın türk poladı və alüminiumuna rüsumu qaldırması Türkiyəni adekvat addımlar atmağa məcbur etdi. Nəticədə birləşmiş ştatların 20 adda məhsulu da bu ölkənin cavab sanksiyalarına məruz qaldı. NATO yaranan gündən müttəfiqlər arasındakı həmrəylik və yekdillik qibtə olunacaq səviyyədə idi. Bu ilin martından bu günədək Ağ evin "doğmalarına" tətbiq etdiyi ticarət sanksiyaları heç yadın da ağlına gəlməzdi. Türkiyə müttəfiqinin bu addımını arxadan vurulan zərbə kimi qəbul edir və belə hesab edir ki, onu iqtisadi müharibəyə sövq edirlər.

Ən pisi də odur ki, Ağ evin sanksiyaları sayəsində birləşmiş ştatların iqtisadiyyatı bumeranq effektinə məruz qalır. Amerikanın qara günlərinin başlaması xəbəri istənilən anda mediada bomba kimi partlaya bilər. Məsələn, Amerikanın "Harley Davidson" şirkəti bu çəkişmələrdən əvvəl ümid edirdi ki, Tramp Avropa ixracatında rüsumları azaldacağı barədə verdiyi vədi yerinə yetirəcək. Atalar demişkən, sən saydığını say, gör, fələk nə sayır. İndi "Harley Davidson" həm ölkəyə gətirilən metalın tariflərinin artmasından, həm də Avropa dövlətlərinin bu şirkətə qarşı rüsumları ikiqat, üçqat qaldırmasından əziyyət çəkəcək. İstehsal etdikləri motosikletlərin kəskin qiymət artımı qarşısında aciz qalan "Harley Davidson" 3 ayda itirdiyi böyük məbləğlərə görə Trampdan narazı qaldığını bildirir. Hamının bərabər qaydalarla faydalanmağa çalışdığı iqtisadi bazarda digərlərinin imkanlarını məhdudlaşdıran təzyiq alətlərinin tətbiqi yolverilməzdir. Böyük dövlətlər bazar münasibətlərindəki harmoniyanı pozub xaos yaradanda meqoiqtisadiyyatın çökmə ehtimalı artır. Yəni, qurunun oduna yaş da yanır.

Son aylarda ABŞ-ın Türkiyədən başqa, İrana və Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları Avropa narazılıqla qarşılayır. İranla işləyən Avropa şirkətlərinin ABŞ-ın sanksiyalarına məruz qalması Avropa ölkələrinin təhlükəsizliyinə təsir edə bilər. Avropanı qeyzləndirən də odur ki, sanksiyalar nəticəsində Avropa şirkətlərinin milyardlarla dollar itirəcəyi qaçılmaz olacaq. Almaniya, Fransa və İngiltərənin xarici işlər nazirlikləri müdafiə üçün iqtisadi və hüquqi mexanizmləri birgə hazırlayacaqlar. Çox güman ki, Avropa şirkətlərinə ABŞ sanksiyalarına əməl etmək qadağan olunacaq.

Avropanın belə əl-ayağa düşməsinin ciddi səbəbləri mövcuddur. ABŞ-ın başladığı ticarət münaqişəsi Karolina ştatında gündə 1400 avtomobil istehsal edən alman konserni BMW üçün əsl təhlükəyə çevrilir. 10 min nəfərin çalışdığı bu zavodda hamı narahatdır ki, ticarət müharibəsinin ilk qurbanı onlar olacaq. Ehtiyat tədbirlərini görən BMW artıq yolsuzluq şəraiti üçün nəzərdə tutulan avtomobillərin istehsalını ABŞ-dan Çinə keçirmək məcburiyyətindədir. Çin isə sanksiyalardan qorunmaq istəyən şirkətə təbii ki, yaşıl işıq yandırıb.

ABŞ sanksiyaları Avropanı siyasi istiqamətlərini təcili dəyişməyə, eyni zamanda, Çin və Rusiya ilə yaxınlaşmağa məcbur edir. Replyua.net internet resursu israilli şərhçi Solomon Mannın bloquna istinadən yazır ki, Avropa tələmtələsik ABŞ-la ticarət müharibəsinə hazırlaşır. Bu məqsədlə o, amerikalı rəqiblərinə münasibətdə mövqelərini gücləndirir və Amerika mallarına qarşı cavab tədbirləri hazırlayır. Amerika istehsalı olan cinslərə və motosikletlərə rüsumlar artırılacaq və ABŞ-ın zəif olan və Avropa satışlarından dolanan istehsal sahələrinə zərbə dəyəcək. Eyni zamanda, avtomobil şirkətləri sərmayələrini Çinə yatızdıracaqlar. Solomon Mann belə hesab edir ki, AB ilə ticarət müharibəsini qızışdırmaq heç də Trampın uğurlu qərarı olmayacaq. Digər tərəfdən isə Avropa dövlətlərinin siyasi dairələrində, o cümlədən Almaniyada belə fikirləşənlər var ki, ümumiyyətlə, ABŞ həmişə Rusiya ilə Avropanı qarşıdurmaya sövq edib, həmişə öz maraqlarını hamıdan üstün tutmağa və diktə etməyə çalışıb. Artıq avropalılar belə hesab edirlər ki, onlar İranla da, Rusiya ilə də münasibətlərini ABŞ-ın maraqlarını nəzərə almadan fərqli dəyərlər üstündə qura bilərlər. Bir sözlə, artıq ABŞ-ı böyük qardaş saymaqdan bezənlərin sayı artır. Siyasi əməkdaşlığın anarxist təfəkkürlə əvəzlənməsi kimin haqlı, kimin günahkar olduğunu təyin etməkdə çətinlik yaradır.

ABŞ Prezidenti və onun məsləhətçiləri öz iqtisadiyyatlarının görünməmiş inkişafından ağızdolusu danışırlar. "Pullar ABŞ-a axır. Bu xarüqədir!" - Tramp bütün baş verənlərə bayram əhval-ruhiyyəsində nikbin münasibət bildirir. Qərb mətbuatı isə bazarları inkişaf etməkdə olan ölkələrdə milli valyutaların dəyərdən düşməsindən, inflyasiyanın artmasından, fond indekslərinin aşağı enməsindən yazır. Faktiki olaraq dünya yeni qlobal böhran ərəfəsindədir.

Alman nəşri **Der Spiegel** ABŞ tərəfindən iqtisadi təzyiqlər artdıqca Rusiyanın Avropa ilə yaxınlaşmasını təbii sayır. Trampla baş verən qarşıdurmaların əksinə olaraq, almanlar da Rusiya ilə əlaqələrin inkişafında maraqlıdırlar. Merkellə Putinin görüşünü şərh edən bu nəşr yazır: "Danışıqların konkret məzmunu açıqlanmasa da, bu o deməkdir ki, Almaniya ilə Rusiya arasında nəsə hərəkətə gəlib". İki dövlətin təmsilçiləri görüşdə nəzakətlə davransalar da, səmimilik müşahidə olunmadı. **The NewYorkTimes** Putinlə Merkelin görüşünü daha praqmatik səviyyəyə yüksəlmək üçün verilən şans kimi qiymətləndirib. Fransız nəşri **Le Monde** qeyd edir ki, bu, iki liderin bu il ikinci dəfə baş tutan görüşüdür. Bunun əsas səbəbi Rusiyanın iqtisadi təzyiqlərdən hiss etdiyi çətinliklərdir. **Bloomberg** isə Trampın siyasətinin və dünya nizamının dağılmasının Putinlə Merkeli bir neçə illik düşmənçilikdən müəyyən maraqlar üzərində müttəfiqliyə sövq etməsini qabardır. Hər iki tərəf Trampa rəğmən, İranla nüvə sazişini qorumaq istəyir, "Şimal-2 axını"nın zəruriliyini təsdiq edirlər. İspan nəşri **La Vanguardia** isə bildirir ki, Tramp Merkellə Putini yaxınlaşdırır: "Hər ikisinin Donald Trampla bağlı ümumi başağrısı var, hər ikisinin əhvalını ümumi problemlər pozur".

Amerikanın məşhur nəşrlərindən sayılan **The Washington Post** Trampın administrasiyasının sanksiyalara meyilli olmasının müttəfiqlər arasında ABŞ-ın nüfuzunun və dolların mövqeyinin zəifləməsinə səbəb olacağını israr edir. Maliyyə nazirinin terrorizmlə mübarizə və maliyyə kəşfiyyatı üzrə müavini Siqal Mandelker isə prezident administrasiyasının əməkdaşları kimi tənqidi inkar edir: "Biz şübhəsiz ki, bu alətlərin istifadə olunmasına düşünülmüş surətdə və strateji yanaşırıq". Lakin keçmiş maliyyə naziri Djek Lyu hələ 2016-ci ildə xəbərdarlıq etmişdi ki, sanksiyalar biznesi Amerika maliyyə sistemindən qopara bilər. Elə hesab edənlər də var ki, ABŞ sanksiyalarda çox dərinə gedib. Belə ki sanksiyalar tətbiq edilən şirkətlərin və adamların ümumi siyahısının həcmi 1100 səhifəni keçir! Kimlərinsə bu siyahıdan çıxması mümkündür, lakin əlavə edilən adlar qat-qat çoxdur.

Trampın özünə gəldikdə isə o, qətiyyət nümayiş etdirir, onu sanksiyalarda imtina etməyə çağıran siyasiləri zəif sayır: "Biz keçən ilki ticarətdə 817 milyard itirmişik. Zəiflik nümayiş etdirməyəcəyik". Pekin cavab tədbirlərini hazırlayır, Avropa İttifaqı da itaət nümayiş etdirmir. Fransanın maliyyə naziri Bryüno Le Mer isə hesab edir ki, Avropa gicgahına dirənən silahın lüləsi altında ABŞ-la danışıqlar aparmayacaq, öncə Vaşinqton metala tətbiq edilən rüsumları ləğv etməlidir: "Güclünün haqqı dünya ticarətinin gələcəyini təyin etməli deyil. Cəngəllik qanunları yalnız uduzanların yaranmasına səbəb olacaq, iqtisadi artımı dağıdacaq. Zəif ölkələrə ziyan vuracaq, faciəvi dərəcədə ağır nəticələrə səbəb olacaq".

Tramp öz gücünü hiss etdikcə təvazökarlıqla ticarət müharibəsini aparmağı və qalib gəlməyi asan sayır. Sonsuz dərəcədə hiddətlənən çinlilər və avropalılar cavab addımlarının üstündə baş sındırırlar. Çin daxili bazarında ildə 300 milyard dollar qazanan ABŞ şirkətlərini yalnız yoxlamalar və gömrük gecikdirmələri ilə yaranmalarına peşman edə bilər. Avropa da dinc durmayacaq, Türkiyə ilə Rusiya da. Bir çox iqtisadçılar, sahibkarlar və politoloqlar Trampın bu addımını oyun kimi qiymətləndirir və güman edirlər ki, Tramp müəyyən üstünlüklərə nail olduqdan sonra geri çəkiləcək.

Sinqapur Ticarət Palatasının başçısı Viktor Mills: "Kim proteksionizm və təcrid etmədən yapışırsa, son nəticədə nəinki qonşusunu, hətta özünü də müflis edir" - deyib.

Endi Stoekellə Yorivik Makkabbin gələcək ticarət müharibəsinin inkişafını Brukinq İnstitutu üçün analiz edərkən belə qənaətə gəlirlər ki, əgər qlobal tariflər cəmi 10 faiz artsa, əksər ölkələrin ÜDM-i 1-4,5 faiz arasında düşəcək. Tariflərin 40 faiz artması dərin qlobal repressiyaya və qlobal depressiyaya səbəb olacaq. Məhz 1930-cu ildə ABŞ-ın cəza tarifləri dağıdıcı millətçiliyin peyda olmasına və iqtisadi kollapsa səbəb oldu. Bu hadisələr ötən əsrdə İkinci Dünya müharibəsi ilə nəticələndi. Bu dəfə isə Donaldın sürprizlərinin nə gətirəcəyi hələ heç kimə məlum deyil.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Vətən sevdalılar

## “Azərbaycan”ın birləşdirdiyi, repressiyanın məhv etdiyi talelər

*Əvvəli 1-ci səh.*

Evlərindədir. Mətbəxdə şam yeməyi hazırlayır. Seyid Hüseyn iş otağına çəkilib. Oğlanları Oqtay, Cığatay və Toğrul gözə dəymirlər. Mələklərə bənzəyən kiçik qızı Qumral isə yenə ətrafında dolanır. Axşam düşsə də, taybatay açdığı pəncərələrdən içəri sərinlik gəlmir. Umgülsüm xanım düşünür ki, yayda şəhərin istisindən bakılıları xilas edən dənizin havası, suyudur. Seyid Hüseyn də hər il mayın axırlarında ailəsi ilə birgə Şüvəlandakı bağına köçürdü. Bu il iyun ayı başlasa da, hələ İçərişəhərdəki evlərindədirlər.

Bir azdan süfrə başına yığışırlar. Analarının bağ tədarükündən söz salması uşaqları sevindirir. Onların ovqatı Umgülsüm xanıma da təsir edir. Təkcə Seyid Hüseynin eyni açılmır. Onun üzündə aylardır kölgələnən sabahlarından nagümanlıq Umgülsüm xanımın da ürəyinə çöküb. İstəyir özünü ələ alıb ərinə təsəlli versin, kövrəlib uşaqları narahat edəcəyindən qorxur. Baxışları otağın nəzərəçarpacaq yerində divara vurduqları təqvimə dikilir. Təqvimdə 1937-ci ildir...

### Yaddaşlarda qalan tarix

Sanki xəyallarının da qanadlarını qırmışdılar. Onlar da 1937-ci ili adlayıb keçə bilmirdilər. Halbuki sevimli həyat yoldaşıyla, əziz övladlarıyla, çox mehriban olduğu qohumlarıyla ən gözəl günləri ondan o üzdə qalmışdı. 1937-ci ildən bu tərəfdə nə vardısa, hamısına təşviş, həyəcan qarışmışdı...

Əslində, bütün bunlar birdən-birə başlamadı. 1937-ci ilə enişli-yoxuşlu yollardan keçib gəldilər. Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn, Umgülsüm Sadıqzadə və sovet hökumətinin qənim kəsildiyi yüzlərlə belə vətən sevdalısının unutmadığı, unutmaq istəmədiyi bir tarix vardı. Adı Azərbaycan Xalq Cümhuriyyəti idi. Bolşeviklər nə qədər səy göstərsələr də, Azərbaycan tarixinin bu möhtəşəm səhifələrini poza bilməyəcəkdilər. Onun qurucularından, ona rəğbət bəsləyənlərdən əlləri çatanlarını məhv, çatmayanlarının adlarını çəkməyi qadağan edə bilərdilər, amma Azərbaycan Xalq Cümhuriyyətinin izlərini yaddaşlardan silməyə gücləri yetməzdi. Çünki müstəmləkə əsarətindən qurtulmaq, Azərbaycanın müstəqilliyini xəyallardan, arzulardan, ideyalardan gerçəkliyə çevirmək, azad ölkənin vətəndaşı olmaq vardı bu adda.

### “Səni sevən, sənsiz ömrü neyləsin?”

...Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətə gəlməsi vətən təəssübkeşlərinin ən ali məqsədləri, ən ülvi arzularıydı. Gənc şairə Umgülsüm xanım da özünü dünyanın bəxtəvəri sayırdı. O vaxtlar hələ ata ocağından ayrılmamışdı. 1900-cü ilin yayında dünyaya göz açdığı, böyüyüb boya-başa çatdığı Bakının Novxanı kəndindəki o evdə keçən günlərinin qayğıları da şirin idi. Çünki qəlbi gələcəklərinə inamla, ümidlə doluydu.

Sayılıb-seçilən bir ailənin qızıydı. Atası Əbdüləziz el-obanın nüfuzlu kişilərindən sayılırdı. Çoxları kimi Umgülsüm xanım da ilk təhsilini ruhani atasından aldı. Klassik Azərbaycan və Şərq ədəbiyyatını da əvvəlcə valideynlərindən öyrəndi. Doqquz yaşından özü də şeirlər yazmağa başladı. 1914-cü il 1 dekabrda “Vətən sevgisi” hekayəsi “Dirilik” jurnalında dərc edildi. 1915-ci ildə “Qurtuluş” jurnalında elan olunmuş müsabiqədə “Solğun çiçək” hekayəsi ilə iştirak etdi və birinci yeri tutdu. Əsərləri “İqbal”, “Yeni iqbal”, “Açıq söz”, “Birlik”, “İstiqlal”, “Azərbaycan”, “Ədəbiyyat”, “Şərq qadını”, “Məktəb”, “Füqəra füyuzatı” və başqa mətbuat orqanlarında da işıq üzü gördü. Onu ədəbi aləmdə milli ruhlu şeirləri tanıtdı. Seyid Hüseyn də Umgülsüm xanımı həmin əsərlərində “gördü”. 1907-ci ildən müxtəlif mətbuat orqanlarında çıxış edən Seyid Hüseyn o vaxtlar artıq istedadlı publisist, tənqidçi, yazıçı kimi məşhurlaşmışdı. Umgülsüm xanım da onun qəzet və jurnallarda işıq üzü görən yazılarını böyük maraqla oxuyurdu. Qadınların savadlanması, hüquqlarının, azadlıqlarının qorunması Seyid Hüseynin daim müraciət etdiyi mövzulardan idi. Elə gənc şairə də cəsarəti, mübarizliyi ilə diqqətini cəlb etmişdi.

“Ölülər”in ilk tamaşasına getdikləri gün onları şair Hüseyn Cavid tanış etdi. 1917-ci ildə nişanlandılar.

Ölkədə mürəkkəb ictimai-siyasi hadisələr tüğyan edirdi. Erməni daşnaklarının törətdikləri mart soyqırımı, inqilablar toylarının təxirə düşməsinə səbəb oldu. O illərdə baş verən ən xoş hadisə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması idi. Yeni hökumət ağır sınaqlarla üzləşdi. Həmin günlərdə fəaliyyətə başlayan “Azərbaycan” qəzeti dövrün görkəmli ziyalıları üçün mübarizə meydanına çevrildi. Müstəqil dövlətin qorunması, yaşadılması amalı ilə yazıb-yaradan qələm adamlarının sırasında qadınlar da var idi. Onlardan biri də Umgülsüm xanım oldu. 1918-1920-ci illər arzuları kimi, yaradıcılığının da çiçəklənən dövrü oldu. Xalqın milli istiqlala qovuşmasını “Türk ordusuna”, “Ey türk oğlu!”, “Çəkil, dəf ol!”, “Əsgər anasına”, “Dərdli nəğmə”, “Yurdumuzun qəhrəmanlığına”, “Yollarını bəklədim” və başqa şeirlərində tərənnüm edirdi. 1919-cu ildə “Azərbaycan” qəzetinin 352-ci sayında yazırdı:

Annəciyim, ağlama, xeyir-dua söylə sən,
Göz yaşınla saxlama haqq yoluna gedəni.
Onun çarpan qəlbinə çalış fərəh verəsən,
Onun şux gənc həyatı qurtaracaq vətəni!

“Əsgər analarına” adlı bu şeirdə müəllif milli ordunun yaradılmasını, səfərbərliyə alınan Azərbaycan gənclərinin və onları yola salan anaların rəşadətini alqışlayırdı.

1920-ci ildə evləndilər... Həmin il bolşeviklər bir millətin müqəddəratını dəyişən, sabahın aydınladan cümhuriyyət işığını söndürdülər. Umgülsüm xanımın şair ruhu o gündən kədərə büründü. “Hicran” adlı şeirində bildirirdi:

Ayrılınca hilal qaşlı yarımdan,
Mən yaşlara batdım geymədim əlvan.
Düşünüb o yıldız gözləri hər an,
Ağlarkən kəndini yorma dedilər.
Könül şəkvəsini kimə söyləsin,
Qəlbimin dərdini kimlər dinləsin?
Səni sevən, sənsiz ömrü neyləsin?
Dalınca qoşarkən, varma dedilər...

“Bayrağımız enərkən” şeirində isə şairə Azərbaycanın müstəqilliyinin rəmzi olan üçrəngli bayrağın daha başları üzərində dalğalanmadığına belə yas tuturdu:

Yazıq səni Bayrağım, endirdilər, öyləmi?
Səni yıxıb devirən o zəhərli ruzigar,
O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar
Yanar ocağımı da söndürdülər, öyləmi?

1920-ci ilin 28 aprelində cümhuriyyətin süqutuna nail olanlar millətin azadlıq ruhunu yenidən oyada biləcək şəxsiyyətlərə düşmən kəsildilər. Gənc ailə də onları gözləyən təhlükədən uzaqlaşmaq üçün Xızıya yollandı. Orada Seyid Hüseyn







məktəbdə müəllim işləməyə başladı. 1921-ci il fevralın 21-də ilkləri dünyaya gəldi. Seyid Hüseyn körpənin adını Oqtay qoydu.

Qış sərt keçirdi. Səbirsizliklə qarla örtülmüş yolların açılmasını gözləyirdilər ki, şad xəbəri şəhərdəki qohumlarına çatdırsınlar. Oğullarının dünyaya gəldiyi gün Seyid Hüseynin qardaşı Mir Paşanın şəhid olduğundan xəbərsizdilər. Mir Paşanın da daxil olduğu Azərbaycan Dövlət Teatrının truppası Bakı Sovetinin sədri Əliheydər Qarayevin tapşırığı ilə Qarabağ kəndlərinə getmişdilər ki, orada azərbaycanlılara dinclik verməyən ermənilərlə söhbət aparıb, onları sülhə çağırsınlar. Gecə hücum edən ermənilər aktyorları qaldıqları evdə qətlə yetirmişdilər.

Bakıya Mir Paşanın 40-na az qalmış gələ bildilər. Daha Xızıya dönmədilər. Tezliklə Seyid Hüseyn həbs olundu. Bir neçə ay sonra onu buraxdılar. 1923-cü ildə yenidən tutuldu. O zaman da iki aya yaxın həbsdə qaldı. Ruhulla Axundovun köməyi ilə azad olundu.

Seyid Hüseyn 1920-ci ildən “Kommunist” qəzeti redaksiyasında ədəbi işçi, orta məktəbdə, texnikumlarda müəllim işləyirdi. Bir neçə yerdə çalışmağa məcbur idi. Çünki yalnız öz ailəsini dolandırmırdı, ona ana əvəzi olmuş bacısı Rübabə xanımın və bolşeviklər hakimiyyətə gəldikdən sonra mühacirətə yollanmış bacanağı Məhəmməd Əmin Rəsulzadənin ailəsinə də əl tuturdu.

Son illər isə “Azərnəşr”in bədii ədəbiyyat şöbəsinin redaktoruydu. 1934-cü ildə onu Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul etdilər. 1936-cı ildə üzvlükdən çıxarıldı, əsərləri daha sərt, daha kəskin tənqid olunmağa başladı.

Başları üstünü almış qara buludlar 1937-ci ilin əvvəllərindən sıxlaşırdı. O gün - iyulun 15-də bağ evlərində Seyid Hüseynin də, Umgülsüm xanımın da kədərli görünmələrinin səbəbi bunlar idi. Repressiya fəlakəti addım-addım onlara yaxınlaşırdı. “NKVD”-nin kabusa dönən qara maşını o gün yaşadıqları ünvana, Şüvəlandakı Zamkovski döngəsi 74-ə doğru istiqamət almışdı...

Ayrılıq anlarında Seyid Hüseyn təmkinini pozmadı. Evdəkilərlə vidalaşanda: “Ağlamayın, belə də olmalıydı”, - dedi. Oğlu Toğrulun həyəcanla verdiyi: “Ata, nə vaxt qayıdacaqsan?” sualının cavabı Seyid Hüseyn üçün də müəmmalıydı.

O gün Novxanıda da Ümgülsüm xanımın bacısı oğlu, on doqquz yaşlı Rəsul Rəsulzadə həbs olundu. Xalasıgildə qonaq olan Oqtay valideynlərinin Bakıda olduğunu güman edirdi. Acı xəbəri vermək üçün xalası qızı Xalidəylə şəhərə gəldi. Bibisi qızı Səyyarə evdə tək idi. Axşam düşürdü. Qərara gəldilər ki, Şüvəlana sabah getsinlər. Gecə saat 1-in yarısında qapıları döyüldü. Gələnlər “NKVD”-nin əməkdaşlarıydı. Evdə axtarış apardılar. Haradansa Müsavat Partiyasının nizamnaməsini tapdılar. Evdəki kitabları, əlyazmaları, sənədləri, şəkilləri Qala qapısının yanında dayanan maşına daşıdılar. Axtarış səhərə yaxın bitdi.

Baş verənləri atasına danışmaq üçün sübh tezdən Şüvəlana yollanan Oqtay onun da bir gün qabaq həbs olunduğunu öyrəndi. Daha bağda qalmadılar. Şəhərdəki evlərinə daşındılar.

Seyid Hüseyn tutulduğu gündən Umgülsüm Sadıqzadə həbsini gözlədi. Gecənin birində aparılarkən uşaqlarının yalnız qalıb qorxacaqlarından narahat idi. Buna görə bacısı Ümbülbanu xanım onlarda qalırdı.

1937-ci ilin yağışlı, küləkli payız gecəsi qapıları döyüldü. Umgülsüm xanım şübhə etmirdi ki, onu aparmağa gəliblər. Təmkinlə qapıya yaxınlaşdı. Bacısının kiçik oğlu Azər “NKVD”-nin əməkdaşları ilə gəlmişdi. Ümbülbanu xanımı götürüb getdilər. Umgülsüm xanım öz həbsini gözlədiyi vaxt “NKVD”-nin əməkdaşları başqa qapıları döymüşdülər. Qardaşı Məmmədəli Rəsulzadənin həyat yoldaşı Raziyə xanımı, oğlanları Musa, Gündüz və Aydını, bacısı Ümbülbanu xanımı, onun qayınanası Maral xanımı, qızı Xalidəni, oğlu Azəri apardılar. Onları Qazaxıstana sürgün etdilər. Umgülsüm xanım üçün əziz olan həyət boş qaldı.

Bacısının böyük qızı Lətifənin də əvvəlcə həyat yoldaşı Damad həbs olundu. Çox keçmədi ki, Lətifə iki qızı ilə Qazaxıstana sürgün edildi. Üçyaşlı qızı isə o zaman xəstə olduğu üçün Bakıda qaldı...

Ona “növbə” Seyid Hüseyndən beş ay sonra - noyabrın 10-da çatdı. Umgülsüm Sadıqzadə Bayıl həbsxanasına salındı. Noyabrın 11-də XDİK-in göstərişi ilə evlərində yenidən axtarış aparıldı.

Umgülsüm xanım həbs olunanda da özündən çox uşaqlarını düşünürdü. Onların uşaq evlərinə veriləcəyindən, qapılarına qıfıl vurulacağından qorxurdu. Ancaq baldızının iyirmi bir yaşlı qızı, Seyid Hüseynlə doğma övladları kimi baxdıqları Səyyarə ocaqlarını sönməyə qoymadı. Dayısı uşaqlarının qəyyumluğunu öhdəsinə götürdü.

### Qaladan xatirələr

...Hələ günlərin sırasını unutmağa başlamamışdı. 1937-ci il 12 noyabr idi. Həbsxanada keçirdiyi bu iki gün ona yuxu kimi gəlirdi. Burada, dörd divar arasında kədərinə yoldaş yenə qələm olacaqdı. Qarşısındakı şagird dəftərində “Qala xatirələrim” yazdı. Bu dəftərdə yalnız özünün deyil, Bayıl həbsxanasında onun kimi işgəncələrə məruz qalan yüzlərlə məhbus qadının müsibətlərini əks etdirəcəkdi. Salındıqları kameranı Umgülsüm Sadıqzadə belə təsvir edirdi: “Bütün yorğan-döşəklər yerə sərilib. Axşamdan bəri 36 adamın bir su başı kimi istifadə etdikləri ağzına qədər dolu çirkab vedrəsinin və onunla yanaşı qoyulmuş su-çay vedrəmizin ağzı açıqdır. Nə bu murdarlığı və üfunəti, nə də bu qədər adamın, balaca, bir tərəfi bağlı otaqda bütün sutka ərzində aldıqları nəfəsdən kəsif havanı təmizləyəcək bir şey yoxdur. Burada hər şey fövqəladə bir şəkildədir. Axşam yatanda soyunmayan məhbuslar geyinmədən də azaddırlar. Yerimizdən qalxıb bayıra çıxırıq. “Uborniya”dan qayıdanda ibtida çay içirik. Çay vedrəyə tökülüb qoyulmuşdur. Kamerada çay içmək və xörək yemək üçün cəmi on səkkiz qab vardır. Bu qablar həbsxananındır. 36 arvad bu qabda həm xörək yeyəcəyik, həm də çay içəcəyik. Xörəkdən sonra yuyulmadan qablarda növbə ilə çay içmək, qanımızı yemək kimi bir şeydir. Bunu Allah düşmənə də qismət eləməsin.

Günorta yeməyimiz də gəlmişdir. Vedrəmizi şorba ilə doldurmaq üçün qapı ağzına qoydular. Biz bunu yeməliyik. Lakin bu yeyiləcək bir şey deyil. Yeyilməsi mümkün olmayan ağ rəngli şorbanı taxta qabdan növbə ilə yemək lazımdır. Güc-zor, ağlaya-ağlaya, ögüyə-ögüyə yeyirik. Aclıqla oyun olmaz, düz iki gündür acıq”.

Həbsxananın gündüzü də, gecəsi də eyni idi. Umgülsüm xanım yazırdı: “Axşam oldu. Bir çox tərəflərdən insan səsləri eşidilir. Hay-küydən qulaq tutulur. Hamı danışır, dinləyən kim olduğu bilinmir. Bir azdan səs-küy nisbətən azaldı. İndi adamların üçü-dördü bir olub xüsusi söhbətə məşğuldur. Söhbətlərinin əsas mövzusu buraya gələnə qədər evlərində keçirdikləri səadətli günlərdir. Hər kəs həzin bir surətdə keçmiş şirin həyatlarını anaraq, anladaraq bütün vücudu ilə yanır. Hər kəs bir gün belə ayrılığına dözə bilmədiyi əziz balaları üçün ağlayır. İndi bura zənənə hamamı deyil, bir yasxanadır”.

Gecələr gözlərindən qaçaq düşmüş yuxulardan imdad diləyirdi. Onda bəlkə balalarına röyalarında qovuşa bilərdi. Dekabrın 14-də səhərə yaxın Qumuş deyə çağırdığı qızını yuxuda gördü. Təzə paltar geyinib, alnına xırdaca qızıllar bağlamışdı. Gülürdü, yanaqları allanmışdı. Umgülsüm xanım elə xoşbəxt idi ki... Yuxudan ayılmağına peşman oldu.

### “Nəymiş təqsirimiz, neyləmişik biz?”

Umgülsüm Sadıqzadənin “Qala xatirələrim”ində ürəkparçalayan bir hekayət də var. “25 fevral 1938-ci il. ...Səhər tezdən bizim kamera ilə üzbəüz kameradan dəhşətli hay-küy qopdu. Hamımız qapıya toplaşdıq. Nə qədər acı bir mənzərə... Şair Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər ağlını itirib. Bu sözü dünəndən bəri eşidirdik. Biz elə zənn edirdik ki, Dilbər, sadəcə, əsəbi hallar keçirir. Amma vəziyyəti, sən demə, doğrudan, ciddi imiş. Nə qədər acı da olsa, onunla bir kamerada olan qadınlar Dilbərin onların kamerasından çıxarılmasını istəyirdilər”.

Kamerada yatmağa yer tapmaq da zülm idi. Həbsxanaya düşənədək hərəsi bir evin xanımı olmuş qadınlar burada hər gecə yer üstündə bir-birlərini söyür, dalaşırdılar. Umgülsüm xanım yazırdı: “23 dekabr 1938. Yatmaq zamanıdır. Yenə hər gecəki kimi yer üstündə narazılıq başlandı. Doğrudan da, yer darısqallığına dözmək çox çətindir. Bu aclıqdan da pisdir. Bütün günü səhərdən axşama qədər ayaqlarımı altıma yığaraq oturmuş və heç olmasa axşam əl-ayağımı uzatmaq, istədiyim hərəkəti etmək istəyirəm. Bu da qətiyyən mümkün deyildir”.

O, bu qovğalardan, mərəkələrdən uzaq durmaq istəyirdi: “23 yanvar 1937. ...Mən nə qədər güzəştə gedir, ehtiyatlı dolanıramsa, yenə də bu çirkinliklərdən mənim üzərimə də sıçramamış olmayır. Dünən mənə də bir dəfə “yalan deyirsən” yükləndi. Bu bir kəlmə mənim üçün böyük söyüşdür. Adamlar bir-birinə nalayiq sözlər söyləyirlər”.

Doğmalarından nigaranlıq, həsrət həbsxananı epidemiya kimi bürümüşdü. Umgülsüm xanım sıxıntılarını “Qala xatirələrim”inə köçürürdü: “4 fevral 1938. Bir neçə gündür yenə halım çox pisdir. Nigarançılığın son pilləsindəyəm. Canım köz üstündə kabab kimi yanır. İki aydan bir qədər artıqdır ki, uşaqlarımın heç birisindən məktub almıram...” Ayrılıq anları, Qumralın yaşlı gözləri, Toğrulun saralmış bənizi xəyalından çəkilmirdi. İstəyirdi həbsxanada saatları, dəqiqələri dağ çayının suları kimi sürətlə axıb keçsin. Amma sanki burada zamana da cəza kəsilmişdi. Keçib getmək bilmirdi. Ona elə gəlirdi ki, təbiətin qanunu dəyişib, sutkalar o qədər uzundur ki, 24 saatın miqyası əqlə sığışmır. Tez-tez həbsxanada şayiələr yayılırdı. Bir gün kimsə dedi ki, uşaqları ilə birlikdə sərbəst surətdə sürgün ediləcəklər. Yenə ağladılar, amma bu dəfə sevinc göz yaşlarıydı...

Həbsxananın ayrı-ayrı kameralarında 350-400 qadın cəza çəkirdi. “Təqsirləri” “xalq düşmənləri”nin ailə üzvləri olmaları idi. Amma Umgülsüm xanımın “günahı” daha böyükdü. O, “xalq düşməni” Seyid Hüseynin həyat yoldaşı, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı və baldızı, Məmmədəli Rəsulzadənin bacısı idi. Həyat yoldaşından fərqli olaraq, Umgülsüm xanım Müsavat Partiyasının üzvü olmuşdu.

O, Azərbaycan Xalq Cümhuriyyətini əsərləri ilə təbliğ və vəsf etmişdi. 1930-cu illər ədəbi tənqidində cümhuriyyət dövründə yazdığı şeirləri, daha çox da “Hicran”, “Bayrağın enərkən” və Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi “Bən” şeirinə görə ittiham olunurdu.

Martın 14-də dustaq qadınlar haqsızlıqlara cavab olaraq, aclıq elan etdilər. Bu da “Qala xatirələrim”ə martın 16-da düzülən sətirlər: “Aclığımız davam edir. Ayağa duranda dizlərim əsir, gözlərim yaşıl-qırmızı görür. Axşamdır. Sözümüzə baxan, dərdimizə qalan yoxdur. Qərara gəldik ki, yeməyə başlayaq. Çünki olan-olmaz canımız da əldən gedir”.

Aprelin 20-də Umgülsüm xanım yazırdı: “Bu gün beş ay on gündür, burada, Bayıl həbsxanasındayam. Yüz altmış gün! Bir o qədər də gecədir ki, uşaqlarımı görmürəm”. Həmin gecə səhərədək çimir eləmədi. Aprelin 21-də səhər görüş icazəsi verilənlərin siyahısında onun da adını oxudular. Özünə verdiyi sözə əməl edə bilmir, göz yaşları aramsız axırdı.

### “Məni nigaran qoymayın”

Uzun ayrılıqdan sonra Bircəbacı dedikləri baldızı Rübabə, baldızı qızı Səyyarə və övladları ilə görüşdü. Oqtayın yanında dayanmış Qumralı əvvəl tanımadı. O da, Toğrul da arıqlamışdılar. Uşaqları məzhun görünürdülər.

Umgülsüm xanım israrla tapşırdı: “Seyid Hüseyndən xəbər çıxan kimi mənə çatdırın. Məktubu lap bir cümlədən ibarət olsa da, mütləq mənə göndərin”. Cığatay onu arxayınlaşdırmaq istədi: “Bizim heç birimizdən narahat olma. Hamımız yaxşı oxuyuruq. Sən özündən danış, nəyin çatmır, nə lazımdır de, göndərək”. Umgülsüm xanım: “Dəftər göndərin, kağızım qurtarıb, bir də yatab gedəndə yəqin ki, isti paltar lazım olacaq”, - dedi. Sonda bir xahişi oldu: “Məni nigaran qoymayın, tez-tez məktub yazın”.

SSRİ Ali Hərbi Məhkəməsinin Səyyar Sessiyasının 5 yanvar 1938-ci il tarixli qərarı ilə Seyid Hüseyn Sadıqzadəyə güllələnmə hökmü verildi. Hökm bir gün sonra yerinə yetirildi. Çox sevdikləri dənizin Seyid Hüseynə məzar olduğundan xəbərsiz Umgülsüm Sadıqzadə Bayıl həbsxanasında “Xəzərə xitab” edir, onu sorğuya çəkirdi:

Nəymiş təqsirimiz, neyləmişik biz?
Bunu sən sual et, mənim dilim yox.
Hansı xəyanətin şərməndəsiyiz?
Bunu sən sual et, mənim dilim yox.

...Umgülsüm Sadıqzadəyə kamera yoldaşları ilə eyni gündə - 1938-ci ilin 10 mayında istintaqsız, məhkəməsiz hökm oxundu. 8 il həbs cəzasına məhkum edildilər. Mayın 21-də Temlaq İslah Əmək Düşərgəsinə göndərildilər.

Həbsxanadan qurtulmağı çox arzulamışdı. Oradan çıxanda anladı ki, dünyanı ona qəfəs ediblər. Yenə evinə, ailəsinə həsrət qaldı. 1941-ci ilin aprelində vətənindən uzaqlarda eşitdiyi doğma musiqi şairəyə bu misraları yazdırdı:

Titrərkən telləri tar-kamançanın
Ürəyim döyündü, əlim titrədi.
Ey gözəl vətənim! Eşqinlə sənin
Gözlərim yaşardı, dilim titrədi.

Düşərgədə tikişçi işləyir, verilən tapşırıqları artıqlaması ilə yerinə yetirirdi. 1941-ci ildə əmək yarışındakı fəallığına görə düşərgə rəhbərliyi ailə üzvlərinə məktub yazmağa icazə verdi. Bundan sonra təsəllini uşaqlarına məktub yazmaqda tapdı. Tərs kimi gözləri də gündən-günə zəifləyirdi. 1941-ci ilin 17 martında Cığatay anasına məktubunu bu sətirlərlə bitirmişdi: “...Sən özündən, o yerlərdən bildikcə çox yaz. Oranı hər bucağına qədər gəzib təsvir elə...” Umgülsüm xanım fevralın 24-də oğluna cavabında yazırdı: “Bir tərəfdən düz deyirsən, digər tərəfdən baxanda bir qədər gülməli çıxır. Buranın hər yerini gəzmək üçün ayaqlarımın ixtiyarı axı məndə deyil?! Ancaq bununla bərabər yenə söylənilməcək sözlər var. Bir aydan bəridir zonadan (hasardan) bayırda hazırlanmış sexə işləməyə gedirik. Bu bizim üçün böyük azadlıqdır! Hər gün səhər saat 7-də qar qalanmış düzəngahdan saldığımız qar rizlə yola düzülür, ayaqlarımızın altında çaxmaq daşı kimi bərkimiş buzların üstü ilə çox ehtiyatla ayaqlarımız qoyulacaq yerləri yoxlaya-yoxlaya işə gedirik. Bu yolda neçə dəfə sürüşüb yıxılmışam. Sonra saat 12 üçün zonaya gəlib bir də işə qayıdırıq. Axşam saat 8-də işdən çıxırıq”.

1941-ci il fevralın 10-da övladları və onlara dayəlik edən Səyyarə xanımla dörd illik ayrılıqdan sonra görüşmək üçün Umgülsüm xanım 4 saylı düşərgə məntəqəsinin rəisinə müraciət etdi. Böyük Vətən müharibəsinin başlanmasını səbəb gətirərək görüşə icazə verilmədi.

Stalinə və Beriyaya dönə-dönə müraciət etmişdi. 1943-cü ildə yenidən SSRİ XDİK-in Xüsusi Müşavirəsinə yazdı. Azad olunmasına 1944-cü ilin aprelində qərar verildi. Bakıya həmin ilin iyununda dönə bildi. Nə şəhər, nə də sakinləri həminki idi. Repressiyanın vurduğu yaralara müharibənin itkiləri də əlavə olunmuşdu.

İllər sonra evinin qapısından içəri girib hər şeyi əvvəlki qaydasında görə bilsəydi... Alt-üst edilmiş həyatlarını, pərən-pərən düşmüş arzularını xəyalında sahmana salırdı. Qapılarını döyür, qarşısında Seyid Hüseyni görürdü. Övladları da evdəydi... Ancaq nə Seyid Hüseyni görə bildi, nə də Oqtayı...

Onlardan sonra balaları çox zülmlər çəkmişdilər. Oqtay rəssamlıq məktəbinin ikinci kursundan qovulmuş, sonralar əzab-əziyyətlə bərpa olunmuşdu. Məktəbi bitirib işə başlayan oğlunu 1941-ci ildə həbs edərək sürgünə göndərmişdilər. Cığatayı da xalq düşməninin övladı kimi əsgərlik adı ilə cərimə batalyonuna yollamışdılar. Ağır katorqa işlərində çalışmaqdan vərəm xəstəliyinə tutulub geri dönmüşdü. Oqtay isə hələ də sürgündəydi.

İyirmi gün sonra Umgülsüm xanıma Bakıda qalmaq yasaq edildi. Bu dəfə də vətənində sürgün olundu. Şamaxıya qızı Qumralla yollandı. Ağır sürgün illəri sağlamlığını əlindən almışdı. 1944-cü il sentyabrın 17-də Şamaxıda dünyasını dəyişdi. Qonşuları Umgülsüm xanımı məşhur Şahxəndan qəbiristanlığında dəfn etdilər. On beş yaşlı qızı Bakıya yalnız, pərişan döndü...

Umgülsüm Sadıqzadə çox faciələr gördü. Bunlar yalnız bir insanın başına gətirilən müsibətlər deyildi. Gözlərinin önündə millətinin işığını söndürdülər, milli hökumətini yıxdılar, bayrağını endirdilər. Umgülsüm xanımın tək qardaşı Məmmədəli Rəsulzadə, əmisi oğlu və bacısının əri Məhəmməd Əmin Rəsulzadə vətən həsrətlisi oldular, mühacirətdə yaşayıb, orada vəfat etdilər. Yeganə bacısı Ümbülbanu, onun qayınanası və əmisi arvadı Maral xanım, bacısı qızı Lətifə və onun ortancıl qızı sürgündə çəkdikləri iztirablara dözməyib qürbət diyarda gözlərini əbədi yumdular. Qardaşı oğlu Musa, həyat yoldaşı Seyid Hüseyn, bacısı oğlu Rəsul, baldızı oğlu Tağı həbs edilərək güllələndilər. Bacısı qızı Xalidə, Lətifənin üçyaşlı qızı itkin düşdülər.

Oqtay Sadıqzadə 1946-cı ildə sürgündən qayıtdı. Anasının geri döndüyünü, üç ay sonra vəfat etdiyini öyrəndi. Vərəm xəstəliyi 1948-ci ildə 24 yaşlı Cığatayın da həyatına son qoydu.

Həyatları repressiya burulğanlarına düşmüş, doğmalarını itirmiş övladları Umgülsüm xanımla Seyid Hüseynin adına layiq övladlar oldular. Qumral yazıçı, Oqtayla Toğrul rəssam kimi tanındılar. Ancaq o illərin ağrıları həyatlarının son anlarınadək səngimədi. Ömürlərinə qasırğa kimi gələn repressiya onların da yalnız doğmalarını deyil, uşaqlıqlarını, gəncliklərini alıb aparmışdı, sevinclərinin, səadətlərinin üzərinə əbədi kölgə salmışdı...

**Zöhrə FƏRƏCOVA,**
**“Azərbaycan”**

# İxracatda kənd təsərrüfatı məhsullarının çəkisi artır

## İndi Azərbaycan xaricdə təkcə neft və qazı ilə tanınmır



*Əvvəli 1-ci səh.*

Qeyri-neft sektorunda aparıcı sahələrdən biri kənd təsərrüfatıdır. Son dövrlər fermerlərə göstərilən dəstək məhsul istehsalında özünü göstərir. Son 2-3 il ərzində kənd təsərrüfatı məhsulları faizlə deyil, dəfələrlə artıb. Belə artım pambıqçılıqda, fındıqçılıqda, baramaçılıqda, tütünçülükdə, xurma istehsalında müşahidə olunur. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında aqrar sektorun inkişafının əhəmiyyətini qeyd edərək demişdir: "Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texnika parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam edəcək, ancaq onun əsas hissəsi həll olunub... Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir sistemlər var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini nəhayət ki, tətbiq etməliyik".

Dövlət başçısının çıxışından görünür ki, aqrar sektorda müasir texnika və texnologiyaların tətbiqinə üstünlük veriləcək. Heç kəsə sirr deyil ki, az-torpaqlı fermer öz sahəsində dəyəri yüksək olan texnika və texnologiyaları tətbiq edə bilməz. Buna görə də kənd təsərrüfatında yeni bir istiqamətin inkişafına diqqət ayrılır. Bu da aqroparklardır. Dövlət həmin məqsədlə aqroparkların infrastrukturunun yaradılması üçün 200 milyon manatdan çox investisiya qoyub, sahibkarlara 100 milyon manatdan çox güzəştli şərtlərlə kredit verib. Ölkə üzrə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu məqsədlə aqroparklara ümumilikdə 1,5 milyard manatlıq sərmayə qoyulması proqnozlaşdırılıb. Məqsəd bu yolla daha yüksək məhsuldarlığa nail olmaqdır. Məsələn, taxıl üzrə ümumi göstərici hər sentnerdən 30 faiz olduğu halda, aqroparklarda bu rəqəm 50 sentnerdir. Yaranan fərq özü kənd təsərrüfatında müasir texnika və texnologiyaların tətbiqinin əhəmiyyətini açıq şəkildə göstərir.

Hazırda ölkə üzrə 4 aqropark fəaliyyət göstərir. Cari ilin sonunadək əlavə 14 aqropark da istifadəyə veriləcək. Artıq fəaliyyət göstərən aqropark və iri fermer təsərrüfatlarında 50 min hektardan artıq ərazidə müasir suvarma sistemlərinin tətbiqi nəticəsində buğda, arpa, dənli qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri üzrə hər hektardan əldə edilən orta məhsuldarlıq ölkə üzrə müvafiq göstəricidən 2 dəfəyədək çoxdur. Dövlət başçısının qeyd etdiyi kimi, bu sahədə yeni texnika və texnologiyaların tətbiqi ilə yüksək məhsuldarlığa nail olmaq mümkündür. Yuxarıda göstərilən rəqəmlər də bunu sübut edir.

Aqrar sektorda çalışan kiçik sahibkarlara dəstək göstərilməsi də unudulmur. Bu məqsədlə iri sahibkarlar tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib. Bunun üçün 1500 fermerlə müqavilə bağlanıb ki, həmin müqavilələr əsasında 3600 nəfər işlə təmin olunub. Beləliklə, həyata keçirilən düşünülmüş bu siyasət nəticəsində həm iqtisadi artıma, həm də məşğulluğun təmin edilməsinə nail olmaq mümkünləşib.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında kənd təsərrüfatında ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 4100,2 milyon manat təşkil etmişdi ki, onun da 2086 milyon manatı heyvandarlıq, 2014,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 6,5 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,5, bitkiçilik məhsulları üzrə 11 faiz artıb.

Kənd təsərrüfatında həyata keçirilən uğurlu islahatlar məhsul ixracında da özünü göstərir. Bu ilin 7 ayında 144 milyon dollar dəyərində pomidor ixrac olunub. Beləliklə, həmin dövrdə ixrac edilən qeyri-neft məhsullarında birinci yerdə pomidor ixracı dayanır. Belə ki, həmin dövrdə meyvə-tərəvəz ixracında 301, pambıq lifi 45, pambıq ipliyi ixracı 12 milyon dollar təşkil edib. Beləliklə, pambıq ipliyi ixracı 32, meyvə-tərəvəz ixracı 19 faiz çoxalıb.

Kənd təsərrüfatının inkişafı ölkənin qeyri-neft sektorunun ixrac imkanlarını əhəmiyyətli dərəcədə artırıb. İlin sonunda bu rəqəm daha çox olacaq. Ona görə ki, yüksək ixrac imkanları olan fındıq, xurma, qoz və digər məhsullar payızda yetişir. Bu məhsulların yığılması ixrac imkanımızı artırmaqla yanaşı, ölkəyə əlavə valyutanın daxil olmasını da təmin edəcək.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Dövlət qayğısının daha bir ünvanı

*Əvvəli 1-ci səh.*

Bu onu göstərir ki, ölkəmizin bütün bölgələrində gözəl imkanlar var. Bu, onu göstərir ki, Azərbaycan bundan sonra da sosial sahədə böyük uğurlara imza atacaq. Çünki belə xəstəxanaların tikintisi, əlbəttə ki, maliyyə vəsaiti tələb edir və bu, təmin olunur. Azərbaycan iqtisadiyyatı inkişaf edir, maliyyə vəziyyətimiz sabitdir, siyasətimiz sosial-yönümlüdür və sosial sahənin inkişafı bizim prioritetimizdir. Ölkəmizin bütün bölgələrində müasir xəstəxanalar istifadəyə verilib. Hesab edirəm, 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın. Gələn il təqribən altı yeni mərkəzi rayon xəstəxanası açılacaqdır. 2019-cu ildə qalan xəstəxanalar da istifadəyə veriləcək və beləliklə, Azərbaycanın hər bir şəhərində ən müasir tibb xidməti göstəriləcək."





Artıq bir ilə yaxındır ki, yeni xəstəxana bölgə əhalisinə yüksək səviyyəli tibbi xidmət göstərir. Tibbin ən son nailiyyətləri hesab edilən müasir avadanlıqlarla təmin olunmuş yeni xəstəxanada yaradılan şərait imkan verir ki, müxtəlif səbəblərdən sağlamlıq problemi ilə üzləşmiş hər hansı bir rayon sakininin paytaxt Bakıya üz tutmasına, vaxt itirməsinə, əlavə vəsait xərcləməsinə daha ehtiyac qalmasın. Yüksək ixtisaslı həkimlər vətəndaşların hər bir müraciətini qayğı və diqqətlə qarşılayır, onların sağlamlığının keşiyində möhkəm dayanmağa çalışırlar. Xəstəxanada görüşdüyümüz rayon sakini Rasim Vəlizadənin dedikləri:

- Görmə problemim vardı. Göz həkimi Elmira Zeynalovaya müraciət etdim. Gözlərimi diqqətlə müayinə edəndən sonra müalicəyə ehtiyac olduğunu söylədi. Artıq bir həftədir ki, müalicə götürürəm. Müqayisə olunmayacaq dərəcədə irəliləyiş var. Bizim sağlamlığımız üçün qayğısını əsirgəməyən, belə gözəl şərait yaradan dövlət başçısına minnətdarıq.

Yeni xəstəxana kompleksi 5 hektara yaxın ərazini əhatə edir. Ərazinin 1,2 hektarında dördmərtəbəli üç binadan ibarət xəstəxana kompleksi inşa olunmuşdur. Muğan əhalisinə dövlətin sanballı qayğısı kimi diqqətçəkən müasir tipli bu sağlamlıq ocağında cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, doğum, nevrologiya, anesteziologiya və reanimasiya, hemodializ, fizioterapiya, infeksion, poliklinika, təcili təxirəsalınmaz yardım şöbələri, klinik laboratoriya, şüa diaqnostika şöbələri fəaliyyət göstərir.

Sabirabad Rayon Mərkəzi Xəstəxanasının baş həkimi, tibb elmləri namizədi, dosent Yusif Quliyev söhbət zamanı bildirdi ki, bütün tibb personalının qüvvə və bacarığını səfərbər edərək çalışırıq ki, Prezident İlham Əliyevin bölgə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasına ünvanlanmış böyük qayğısını öz nümunəvi xidmətimizlə tamamlayaq. Dövlət lazım olan hər şəraiti yaradıb. Gözəl, yaraşıqlı, əlverişli bina, ən məşhur dünya şirkətlərinin istehsal etdikləri müasir tibb avadanlıqları istifadəmizə verilib. Yaradılan bu ideal şəraitdən məqsədyönlü şəkildə istifadə edib xalqa nümunəvi səhiyyə xidməti göstərmək bizim şərəfli borcumuzdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Təhsil Nazirliyi Gürcüstandakı soydaşlarımıza 20 mindən çox dərslik göndərib




Azərbaycan Respublikasının Təhsil Nazirliyi Gürcüstanda yaşayan soydaşlarımızın ana dilində dərsliklərlə təmin olunması istiqamətində tədbirlərini davam etdirir.

AZƏRTAC xəbər verir ki, nazirlik Gürcüstan məktəblərinin I-XI siniflərdə təhsil alan şagirdlərə 2018-2019-cu tədris ili üçün Azərbaycan dili və ədəbiyyatı kitablarını göndərib.

Dərsliklər sentyabrın 8-də Azərbaycanın Gürcüstandakı səfirliyi vasitəsilə bu ölkənin Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinə təqdim olunub.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məsul əməkdaşı Qüdsi Seyfulla jurnalistlərə bildirib ki, Gürcüstandakı soydaşlarımızın ana dilində dərsliklərlə təmin olunmasının əsası 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev də bu işə xüsusi diqqət göstərir. Dövlət başçısının tapşırığına əsasən Təhsil Nazirliyi Gürcüstanda yaşayan azərbaycanlıların təhsil problemlərini diqqətlə öyrənir və onların dərsliklərlə təminatı istiqamətində mühüm addımlar atır. 1994-cü ildən bugünədək Gürcüstanda I-XI siniflərdə təhsil alan soydaşlarımız üçün 550 minədək müxtəlif adda dərs vəsaiti göndərilib. Bu gün isə 24 min 127 ədəd kitab gətirmişik.

"Düşünürəm ki, bu kitablar soydaşlarımızın ana dili və ədəbiyyatımızı öyrənmələrində, mükəmməl təhsil almalarında mühüm rol oynayacaq",- deyə Q.Seyfulla vurğulayıb.

Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin məktəbəqədər və ümumtəhsil departamentinin rəisi Mariam Çikobava deyib ki, iki ölkənin təhsil nazirlikləri arasında imzalanmış əməkdaşlığa dair protokola əsasən Azərbaycan tərəfi bizim ölkənin vətəndaşları olan azərbaycanlılar üçün müxtəlif dərslik və metodik vəsaitlər göndərir. Bu vəsaitlər bizim tərəfimizdən müvafiq qaydada Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərə paylanacaq. Həmin sənədə əsasən Gürcüstan tərəfi də Azərbaycandakı gürcüdilli məktəbləri dərsliklərlə təmin edir.

Kitabların təqdimat mərasimində Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Fəxri Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

# *Qəbələ:* hər kəsin rahatlıq tapdığı məkan

## İcra olunan infrastruktur layihələri rayonun imkanlarının və cəlbediciliyinin artmasına təkan verir

*Əvvəli 1-ci səh.*

Belə ki, hazırda Təhsil Nazirliyinin sifarişi ilə Vəndam qəsəbəsində 360 şagird yerlik tam orta, Qaradeyn kəndində 80 şagirdlik modul tipli tam orta və Şəfili kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binalarının tikintisinə hazırlıq görülür. Həmçinin "Azərbaycan Dəmir Yolları" ASC-nin sifarişi ilə 43 kilometr uzunluğunda Ləki-Qəbələ birxətli dəmir yolu tikintisinə hazırlıq işləri aparılır.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə və Uludaş kəndlərində subartezian quyularında qazma işləri başa çatdırılıb.



### *Gələnlər də məmnun qalır, gedənlər də...*

Bu ilin əvvəlindən Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayında da əhəmiyyətli dərəcədə artım müşahidə olunub. Beynəlxalq əlaqələrin inkişafı istiqamətində vacib addımlar atılıb. Belə ki, fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib. Gəzinti zamanı Nic qəsəbəsindəki "Cotari" Alban-Udi xristian kilsəsi və qəsəbədə yaşayan udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılıb. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-pri yarışları, iyun ayında rayonun Vəndam qəsəbəsi ərazisində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı, Heydər Əliyev Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici" VI Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilib.

Eləcə də ötən dövrdə Almaniya Federativ Respublikasının səfiri Mixael Kindsqrab tanışlıq məqsədilə Qəbələ rayonuna səfər edib. Səfər çərçivəsində səfir rayonun tarixi-mədəni yerləri və sənaye müəssisələri ilə yaxından tanış olub.

Bununla yanaşı, iyun ayında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qnezno şəhərində keçirilən Azərbaycan Respublikasında müstəqilliyin əldə edilməsinin və Polşa Respublikasının müstəqilliyinin bərpa olunmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak edib. Səfər çərçivəsində nümayəndə heyəti Qnezno şəhərinin bir sıra istehsalat müəssisələri, bölgənin tarixi-mədəni yerləri və turizm sektoru ilə yaxından tanış olub.

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin fəaliyyətini də məhsuldar hesab etmək olar. İlin əvvəlindən burada 42 tədbir həyata keçirilib. Onlardan 25-i gənclərlə iş sahəsini, 17-i isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib.

Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən səmərəli istifadə olunub. Kompleksin bir günlük xidmətlərindən istifadə edənlərin orta sayı 376 nəfər təşkil edib. Onlardan da orta hesabla 116 nəfəri ödənişli, 260 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən yararlanıblar.

### *Aqrar sahədə uğurlar var*

Ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd edildiyi kimi, son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bütövlükdə ölkə üzrə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Ölkəmizdə cari ilin altı ayında aqrar sahədə artım 4,2 faiz olub. Bu artım tendensiyası Qəbələnin aqrar sahəsində də müşahidə olunur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Həmin sərəncam kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük ruh yüksəkliyi yaradıb və icrası ilə əlaqədar olaraq cari ilin may ayından etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına yardımların hesablanmasına başlanılıb.

Taxılçılıq rayonun aqrar iqtisadiyyatının əsasını təşkil edir. 2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında 20 min 100 hektar sahədə payızlıq dənli bitkilər əkilib. Onun da 14 min 600 hektarı buğda, 5500 hektarı isə arpa sahələridir. Biçilmiş sahələrin məhsuldarlığı təqribən 32 sentnerdir.

Torpaq sahibləri tərəfindən 2018-ci ildə 632 hektar sahədə kartof, 559 hektarda isə tərəvəz əkilib. Həmin sahələrdən 79 ton kartof, 215 ton tərəvəz istehsal edilib. Məhsul toplanışı davam etdirilir. Onu da qeyd edək ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın yemə olan tələbatının ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılıb və həmin sahələrdə yem bitkiləri əkilib. Əsasən yonca, vələmir, yem noxudu və yem çuğunduru əkinlərinə diqqət artırılıb.

Rayonda meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda Qəbələdə 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Əhalinin həmin məhsullara olan tələbatının ödənilməsi, həm də rayonun emal müəssisələrinin xammalla təminatı baxımından meyvə və üzüm sahələrinin genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılıb.

İndi kənd təsərrüfatının hər bir sahəsi vacib olduğu üçün ixracyönümlü məhsulların istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

### *Yeni təminatlar yaradılır*

Rayonda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulub. 2016-2017-ci illərdə 1218 hektar, 2018-ci ilin yazında isə 120 hektar olmaqla cəmi 1338 hektar yeni fındıq bağları salınıb. Cari ilin payızında əlavə olaraq 700 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulub.

Eləcə də 2018-ci ilin birinci yarısında dövlət meşə fondu torpaqlarının 32,3 hektar ərazisində aqromeşə massivləri, meyvə bağları salınıb. Bunun da 15,5 hektarını fındıq, 7,3 hektarını şabalıd, 8,7 hektarını qoz və 0,8 hektarını alma bağları təşkil edir.

Qəbələ rayonunda uzun fasilədən sonra barama və tütün istehsalına da başlanılıb. Cari ildə 101 nəfər kümçü tərəfindən 9110 kiloqram barama istehsal edilib. Barama istehsalının artırılması məqsədilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılıb ki, bu da gələcəkdə rayonda barama istehsalının artırılmasına şərait yaradacaqdır.

Həmçinin 75 hektar sahədə tütün əkilib. Yüksək keyfiyyətli tütün yetişdirilməsinə nail olmaq üçün tütün sahələrində bütün aqrotexniki tədbirlər vaxtlı-vaxtında aparılır. Hazırda sahələrdə tütün qırımı işləri aparılır.

Qeyd edək ki, ötən müddət ərzində güzəştli qaydalarla 686 nəfərə 1412 ton gübrə və 3292 litr pestisid verilib. Bu da sözsüz ki, sahələrdən daha çox məhsul götürülməsinə dəstək deməkdir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Gəmidən sahili seyr edək



Foto F.BAĞIROVUNDUR

# Uğurlu gələcəyin təminatı

Maarif sözünü çox zaman işıq sözü ilə yanaşı işlədirik. Atalarımız da "Savadsız adam kor kimidir" - deyiblər. Qəlbi, düşüncələri elmin, təhsilin nuruna bürünənlər başqalarının da yolunu aydınlada bilirlər.

Savadsızlığın ləğv edilməsi bütün dünya vətəndaşlarını düşündürən ən ümdə məsələlərdən biridir. Bu gün də planetimizdə yetkinlik yaşına çatmış hər 6 nəfərdən birinin yazıb-oxumağı bacarmaması təəssüf doğurur. Hələ 2002-ci ildə BMT Baş Assambleyasının qəbul etdiyi qətnaməyə əsasən, 2003-2013-cü illər BMT Savadlılıq Onilliyi elan olundu. Bu mühüm məsələni nəzərdə saxlamaq məqsədi ilə hər ilin 8 sentyabrı Beynəlxalq Savadlılıq Günü kimi qeyd edilir. Həmin gün təhsilin inkişaf etdirilməsinin, bu istiqamətdə bütün il boyu həyata keçirilmiş və qarşıda duran işlərin vacibliyi, hər kəsin təhsil almaq hüququna malik olması yenidən diqqətə çatdırılır.

Bir millətin tərəqqisi naminə əldə edəcəyi birinci uğur kütləvi savadlanmaya nail olmasıdır. Bunun üçün ötən əsrlərdə Azərbaycan ziyalılarının ən böyük qayğısı, ali məqsədlərə doğru gedən yolda ilk müvəffəq olmaq istədikləri soydaşlarının yazıb-oxumağı öyrənməsi idi. Düşünürdülər ki, millətdaşları savadlanarsa, dünyanın işlərindən xəbərdar olar, haqlarını, hüquqlarını anlayarlar. Savadlı, dünyagörüşlü vətəndaş həm də dövrün tələblərindən çıxış edərək doğma vətənin, ölkəsinin müqəddəratı naminə səylə çalışmağa, məqsədyönlü işlər görməyə qadirdir.

Tarixə nəzər salanda görürük ki, uzun zaman ölkəmizin hər yerində təhsil ocaqları adına yalnız mollaxanalar fəaliyyət göstərirdi. Orada isə əsasən ala-yarımçıq ərəb hərfləri öyrədilir, çərəkələr əzbərlədilirdi. Mollaxanalarda uşaqlara nəinki dünyəvi elmlər, heç dini biliklər də verilmirdi.

XIX əsrin əvvəllərində Azərbaycanda milli oyanış gücləndi. O zaman sayca az olan ziyalılarımızın böyük əksəriyyətinin fəaliyyətində maarifçilik böyük yer tuturdu. Ancaq çar imperiyasının müstəmləkəsində yaşayan ölkələr arasında təhsil məsələsində də ən çox problemlərlə üzləşənlərdən biri Azərbaycan idi. Maarifin inkişafının milli oyanışa, milli özünüdərkə təkan verəcəyindən ehtiyat edən çarizm burada yeni tipli məktəblərin açılmasını uzun müddət əngəllədi. Ancaq problemin ən ağrılı tərəfi başqa idi. Azərbaycanda təhsildən uzaq, cahil ata-analar özləri də övladlarının məktəbə getməsində, savadlanmasında maraqlı deyildilər. Buna görə maarifpərvər ziyalılarımız həm yeni tipli məktəblərin açılmasına, həm də valideynlərin uşaqlarını belə təhsil ocaqlarına göndərmələrinə çalışırdılar.

Azərbaycan təbəddülatlarla dolu XX əsri belə qarşıladı. Əsrin başlanğıcında yenilikçilərin əməli fəaliyyətlərində hələ də məktəblər, eləcə də mətbuat orqanları, mətbəələr, qiraətxanalar, xəstəxanalar açmaq uğrunda mübarizələri daha çox nəzərə çarpırdı. Çarizmin bütün maneələrinə baxmayaraq, Azərbaycanın millətpərvər övladları müəyyən uğurlar əldə edə bilirdilər.

Diqqət göstərilən əsas məsələlərdən biri qızların, qadınların məktəblərə cəlb olunması idi. Azərbaycan ziyalıları əmin idilər ki, millətin və ölkənin inkişafı naminə görüləcək ən mühüm işlərdən biri budur. Çünki vətənin gələcəyini müəyyənləşdirəcək uşaqları analar tərbiyə edir. 1900-cü ilin yazında ilk dəfə Bakıya gələn görkəmli publisist Ömər Faiq Nemanzadəni də "Ən böyük türk milyonerlərinin, ən nüfuzlu axundlarının, ən böyük fanatiklərin, ən qorxulu maarif düşmənlərinin, ən birinci millət xainlərinin toplaşdığı bu şəhərdə" sevindirən təkcə Hacı Zeynalabdin Tağıyevin açdığı müsəlman qız məktəbi olmuşdu. O, yazırdı: "Burada maarif adında türklərə məxsus ancaq bir-iki ibtidai məktəb vardı. Rus məktəblərindəki türk tələbələrinin sayı barmaqla göstəriləcək dərəcədə idi. ...Burada Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim. Lakin heç gözləmədiyim qız məktəbi məni o qara xəbərçilikdən qurtardı".

XX əsrin ilk illərində millətin savadlı, ictimai-siyasi həyatda fəallıq göstərən qabaqcıl övladları soydaşlarını maarifləndirmək, yoxsul balaları məktəblərə cəlb etmək, ehtiyacı olanlara maddi kömək göstərmək üçün bütün vasitələrdən istifadə edirdilər. 1906-cı il 8 martda Bakıda "Nicat" mədəni-maarif cəmiyyəti də bu məqsədlə yaradıldı. Bu cəmiyyət tərəfindən böyüklər üçün axşam kursları açıldı. Üç qrupda (bisavad, az savadlı və savadlı) fəaliyyət göstərən axşam kurslarında Azərbaycan və rus dilləri ilə yanaşı, riyaziyyat fənni də tədris edildi.

"Nicat"ın 14 nəfərdən ibarət qadınlar şurasının fəaliyyəti də təqdirəlayiq idi. 1908-ci il oktyabr ayının 26-da tanınmış ziyalı qadınların yaratdıqları həmin şöbənin əsas vəzifəsi təhsil almaq istəyən müsəlman qızlara kömək etmək idi.

Tariximizə işıqlı dövr kimi yazılan Azərbaycan Xalq Cümhuriyyəti illərində əhalinin savadlanması, yüksək kadrların hazırlanması məsələlərinə xüsusi əhəmiyyət verildi. Cəmi 23 ay bərqərar olan Cümhuriyyət hökuməti Azərbaycanın bütün bölgələrində yeni məktəblər açdı. Həmin illərdə Bakı Dövlət Universiteti yaradıldı. Xaricdə təhsil almağa 100 nəfər gənc göndərildi.

Ədalət naminə deməliyik ki, dövlət müstəqilliyimizə qəsd edən bolşeviklər də maariflənməyə laqeyd qalmadılar. Sovet hakimiyyəti illərində yaradılan savadlandırma kurslarının, gecə məktəblərinin də əhalinin maariflənməsində böyük rolu oldu.

XX əsrin son onilliyində yenidən müstəqilliyinə qovuşan Azərbaycan Respublikası ağır sınaqlardan şərəflə keçdi. Təhsil dövlətimizin prioritet məsələlərindən birinə çevrildi.

Ölkə vətəndaşlarının hərtərəfli inkişafında maariflənmənin əsas vasitə olduğu hər zaman diqqət mərkəzində saxlanılır. Buna uyğun qərarlar verilir, fəaliyyət proqramları qəbul olunur. Azərbaycan dövləti uşaqların sağlam, savadlı, intellektual səviyyədə böyüyüb inkişaf edərək cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi üçün müxtəlif layihələr həyata keçirir. Məktəbəqədər və ümumtəhsil müəssisələrində, orta ixtisas və ali məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi üçün dövlət tərəfindən ardıcıl işlər görülür. Sağlamlıq imkanları məhdud uşaqlar da təhsildən kənarda qalmır. Onlara xüsusi məktəblərdə, internat məktəblərində və siniflərdə oxumaq imkanı yaradılır. Prezident İlham Əliyev bildirib: "Biz çox şadıq ki, uşaqlarımızın hamısı, yəni, onların yüz faizi məktəblərdə təhsil alır. Ölkədə savadlılıq, demək olar ki, yüz faizdir".

Son illər Azərbaycanda təhsil sistemində beynəlxalq standartlara uyğun islahatlar aparılır, təhsilin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Həmçinin respublikamızda məktəbdən kənarda qalmış uşaqların, eləcə də yaşlıların təhsillərini davam etdirmələri üçün dövlət tərəfindən tədbirlər görülür.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsində qeyd olunur ki, bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılmalı və təhsil hüququ təmin olunmalıdır. Həmin sənəddə daha sonra bildirilir ki, dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir. Vətəndaşların təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol verilmir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminatçıdır.

Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Son illərdə Azərbaycanda 3000-nə yaxın yeni məktəb tikilib, çox sayda məktəb isə əsaslı təmir olunub, bir sıra məktəblər üçün əlavə korpuslar inşa edilib. Şagirdlərin dərsliklərlə pulsuz təminatı, azərbaycanlı gənclərin xarici ölkələrin ən nüfuzlu ali məktəblərində təhsil almaq imkanlarının artırılması, elm adamlarına, təhsil işçilərinə diqqət və qayğı dövlətin bu sahəni daim diqqətdə saxladığını göstərir.

Heydər Əliyev Fondunun təhsillə bağlı layihələri də bu sahənin inkişafına mühüm töhfələr verir. Belə ki, son illərdə fondun təşəbbüsü ilə 400-dən çox yeni məktəb tikilərək istifadəyə verilib, 40-dan çox uşaq evi və internat məktəb əsaslı təmir və bərpa olunub, müasir avadanlıqlarla təchiz edilib.

Təhsil sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsi də Azərbaycanın qazandığı uğurların nümunəsidir.

Texniki tərəqqi əsri sayılan XXI əsrdə savadsızlıq dünyada milyonlarla insanı əhatə edir. Ötən il Beynəlxalq Savadlılıq Günü münasibətilə ictimaiyyətə müraciət edən UNESCO-nun baş direktoru İrina Bokova qeyd etdi ki, dünyada 750 milyon yaşlı insanın ən ibtidai savadı yoxdur. Təxminən 264 milyon uşaq və yeniyetmə orta təhsil almaqdan kənarda qalıb. Həmçinin yaşlı insanların və gənclərin xeyli hissəsi rəqəmsal bilikdən məhrumdurlar. Müraciətdə dayanıqlı inkişafın əsas hədəflərindən olan keyfiyyətli təhsilə nail olmaq üçün birgə fəaliyyət göstərməyin zəruriliyi diqqətə çatdırıldı. Bildirildi ki, Beynəlxalq Savadlılıq Günü bizə əldə edilmiş nəticələri qiymətləndirməyə və qarşıya qoyulan vəzifələrin həlli üçün qüvvələrimizi birləşdirməyə imkan yaradır.

Beynəlxalq Savadlılıq Günü hər kəsə bu həqiqəti bir daha xatırladır ki, cəmiyyətin inkişafı, dövlətin tərəqqisi savadlı vətəndaşlarının sayəsində mümkündür. Bu gün Azərbaycan dövlətinin hər bir vətəndaşının təhsil alması üçün yaratdığı şərait respublikamızın uğurlu gələcəyinin təminatıdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Türkiyə, Rusiya və İran liderləri Suriya üzrə bəyanatla çıxış etdilər



Tehranda Suriya üzrə üçtərəfli Türkiyə-İran-Rusiya sammiti iştirakçılarının birgə bəyanatı açıqlanmışdır. Bəyanat üç ölkənin prezidentlərinin - Rəcəb Tayyib Ərdoğan, Həsən Ruhani və Vladimir Putinin iştirakı ilə keçirilmiş görüşün yekunlarına görə qəbul olunmuşdur.

Sənəddə deyilir ki, "İran və Rusiya Suriyanın ərazi bütövlüyünü sarsıdan addımlara və region ölkələrinin təhlükəsizliyinə ziyan vuran separatçılara qarşı mübarizə aparmaq qətiyyətini vurğulayırlar". Türkiyə, Rusiya və İran əməkdaşlıq və Astana prosesi ruhunda İdliblə bağlı yanaşmalar formalaşdıracaq.

Suriya üzrə sazişlərin qarant ölkələrinin prezidentləri 2017-ci ilin yanvarından sonra bu ölkədə baş vermiş proseslərdən, məsələn, zorakılığın səviyyəsinin azalmasından və sülh üçün töhfələrdən, ölkədəki sabitlik və təhlükəsizlikdən məmnunluqlarını ifadə etmişlər.

Liderlər Suriyanın suverenliyi, müstəqilliyi, birliyi və ərazi bütövlüyü, habelə BMT Nizamnaməsinin məqsədləri və prinsiplərinə sadiq qaldıqlarını vurğulamışlar.

## Vətəndaşların və nəqliyyat vasitələrinin dövlət sərhədindən daha sürətli keçidinin təmin edilməsi təkmilləşdirilir

Sentyabrın 8-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev və Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyətin təşkilinin vəziyyətini yoxlayıblar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılışı prosedurlarının təkmilləşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyinin dəyərləndirilməsi məqsədilə dövlət sərhədindən keçən şəxslərlə söhbətlər aparılıb. Bu söhbətlərdə son dövrlərdə dövlət sərhədindən buraxılış məntəqələrinin xidməti fəaliyyətində nəzərəçarpan yeniliklərin səmərəliliyi barədə vətəndaşların fikirləri öyrənilib, təklif və müraciətləri dinlənilib.

Sonra general-polkovnik Elçin Quliyevin və gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən keçən şəxslərin hüquqlarının qorunması ilə bağlı tapşırıq və göstərişlərin icrası üzrə hər iki qurumun üzərinə düşən vəzifələr, o cümlədən sərhəd və gömrük təhlükəsizliyinin gücləndirilməsi ilə yanaşı, dövlət sərhədindən keçən şəxslərin yoxlanılmasına mümkün qədər az vaxt sərf edilməsinin üsul və metodları haqqında geniş fikir mübadiləsi aparılıb.

Müşavirədə "Samur" dövlət sərhədindən buraxılış məntəqəsindəki mövcud vəziyyət, Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin yerli bölmələrinin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi məsələləri müzakirə edilib və vəzifəli şəxslərin məruzələri dinlənilib.

Son zamanlar sərnişin və yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması nəzərə alınaraq, dövlət sərhədindən buraxılış məntəqələrində xidməti fəaliyyətin daha da optimallaşdırılması, o cümlədən dövlət sərhədindən keçən şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkilinə dair təkliflər müzakirə olunub.

Vətəndaşların və nəqliyyat vasitələrinin dövlət sərhədindən daha sürətli keçidinin təmin edilməsi məqsədilə rejim zonasının daxilində infrastrukturun daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verilib və cari il noyabrın sonunadək yekunlaşdırılması nəzərdə tutulub.

Şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinin daha da asanlaşdırılması, rejim zonasının yaxınlığındakı infrastrukturun yaxşılaşdırılması məqsədilə "Samur" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısındakı ərazinin abadlaşdırılması və səliqəyə salınması məsələləri Qusar Rayonu İcra Hakimiyyətinin başçısı Şair Alxasov ilə müzakirə olunub. Müvafiq tədbirlərin qısa müddət ərzində görülməsi qərara alınıb.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

## Türkiyədə 62 terrorçu zərərsizləşdirildi



Türkiyə təhlükəsizlik qüvvələrinin Şirnak, Siirt, Hakkari, Diyarbəkir, Mardin və İraqın şimalında keçirdiyi antiterror əməliyyatları nəticəsində son bir həftə ərzində 62 terrorçu, o cümlədən PKK silahlılarının dörd başçısı zərərsizləşdirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Bundan əlavə, qaçaqmalçılara və narkotika alverçilərinə qarşı əməliyyatlar zamanı 51,1 min qutu siqaret, 2690 litr yanacaq, 179 çətənə kolu və 296 kiloqram narkotik maddə müsadirə olunmuşdur.

"Zeytun budağı" əməliyyatı başladıqdan bəri zərərsizləşdirilmiş terrorçuların sayı 4573-ə çatmışdır. Terrorçularla döyüşlər zamanı 54 türkiyəli əsgər həlak olmuş, 241-i yaralanmışdır.

## Əfqanıstanda dəhşətli qəza

Əfqanıstanın Qəndəhar əyalətində avtobus yük maşını ilə toqquşmuşdur. Nəticədə 15 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. Bu barədə "TOLO News" telekanalı xəbər verir.

Hadisə dünən səhər Jari rayonunda baş vermişdir. Ölənlər arasında qadınlar və uşaqlar da var. Bəzi yaralıların vəziyyəti ağırdır. Əfqanıstanda tez-tez yol-nəqliyyat qəzaları baş verir. Bunların əksəriyyətinin səbəbi yolların pis vəziyyətdə olması, sürət rejiminin artırılması və nəqliyyat vasitələrinin idarə edilməsində səhvlərdir.

## Rusiya Özbəkistanda AES tikəcək



Rusiya Özbəkistanda atom elektrik stansiyası (AES) inşa edəcək. Bu barədə sazişi dünən iki ölkənin hökumət başçıları Dmitri Medvedev və Abdulla Aripov imzalamışlar.

Bundan əvvəl iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclasında çıxış edən Medvedev bildirmişdir ki, bu layihə strateji xarakter daşıyır. Söhbət texnologiyaların böyük miqyaslı transferindən, geniş səriştəyə malik mütəxəssislərin hazırlanmasından gedir. Bu isə Özbəkistanı texnoloji inkişafın digər səviyyəsinə keçirir.

Öz növbəsində, Aripov layihənin reallaşdırılmasına kömək göstərdiyinə görə Rusiya tərəfinə minnətdarlıq etmişdir. Artıq Özbəkistanın ali məktəblərində AES-də işləmək üçün mütəxəssislərin hazırlanması başlanmışdır. AES-in 2028-ciilədək istismara verilməsi planlaşdırılır.

## Əlcəzairdə vəba epidemiyasının qarşısı alındı



Əlcəzairdə 70 nəfərdən çox adamın xəstəxanalara yerləşdirilməsinə səbəb olmuş vəba epidemiyasının qarşısı alınmışdır. Bufarik rayon xəstəxanasının direktoru Rida Daqbuşun dediyinə görə, xəstələrin hamısı müalicə olunaraq evə buraxılmışdır. Uğurlu nəticə tibbi personalın səyləri nəticəsində mümkün olmuşdur.

Qeyd edək ki, ölkədə vəba epidemiyası yayın axırlarında qeydə alınmışdır. Ötən ayın 30-da xəstələrin sayı 74 nəfər idi. İki nəfərin dünyasını dəyişdiyi bildirilir.

## Hokkaydoda zəlzələ qurbanlarının sayı 27 nəfərə çatdı

Yaponiyanın şimalında yerləşən Hokkaydo adasında baş vermiş güclü zəlzələdə ölənlərin sayı 27 nəfərə çatmışdır. 13 nəfər itkin düşmüş hesab olunur. Bu barədə Yaponiya hökumətinin baş katibi Yosihide Suqa məlumat vermişdir.

Hazırda altı yaralı ağır vəziyyətdədir.

Təbii fəlakətin fəsadlarının aradan qaldırılması işinə özünümüdafiə qüvvələrinin, yanğınsöndürmə xidmətinin və polisin 40 min əməkdaşı, habelə 75 helikopter cəlb edilmişdir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin direktoru Əli Məmmədova bacısı

**ŞÖLƏ ŞAMOYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin kollektivi fakültənin dekanı, əməkdar elm xadimi, professor Akif Quliyevə həyat yoldaşı

**JANNA RÜSTƏM QIZI QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8603
Sifariş 2580